HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 26 (716) ▪ 9 iyul 2014 | www.vergiler.az | Qiyməti: 40 qəp.

# Azərbaycan öz milli maraqlarını qətiyyətlə müdafiə edir

*İyulun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsi keçirilmişdir.*



Müşavirəni giriş sözü ilə açan xarici işlər naziri Elmar Məmmədyarov diplomatik xidmət orqanları rəhbərlərinin 2012-ci ildə keçirilmiş dördüncü müşavirəsindən sonrakı müddət ərzində Xarici İşlər Nazirliyi sisteminin fəaliyyəti barədə geniş məlumat vermişdir. Bildirilmişdir ki, son iki il ərzində ölkəmizin İsveçrə Konfederasiyasında, Avstraliya İttifaqında, Vyetnam Sosialist Respublikasında yeni səfirlikləri, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində baş konsulluğu, Kolumbiya və Uruqvayda isə təmsilçilik ofisləri açılmışdır. Hazırda Azərbaycan Respublikasının xarici ölkələrdə 57 səfirliyi, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 baş konsulluğu, 7 təmsilçilik ofisi və 7 fəxri konsulluğu fəaliyyət göstərir. Respublikamızda 58 dövlətin səfirliyi, 4 baş konsulluq, 10 fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur.

Prezident İlham Əliyev müşavirədə geniş nitq söyləyərək xarici siyasətdə əldə olunan uğurlardan və qarşıda duran prioritet vəzifələrdən söz açmışdır. Dövlətimizin başçısı vurğulamışdır ki, Azərbaycanın xarici siyasəti müstəqilliyi və prinsipiallığı ilə seçilir: «Bunun əsas səbəbi, əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur. Çünki güclü siyasi iradə olmasa, heç bir ölkə müstəqil siyasət apara bilməz. Bu siyasi iradə vardır. Bu siyasi iradə özünü həm daxili, həm xarici siyasət məsələlərində göstərmişdir. Eyni zamanda, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada da öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək. Ona görə, son illərdə həm siyasi, həm iqtisadi islahatların aparılması ölkəmizin çox böyük inkişafına səbəb olmuşdur. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, gələcəyini özü müəyyən edir, tam şəkildə müstəqil siyasət aparır. Azərbaycanda iqtisadi müstəqillik tam təmin edilibdir. Azərbaycan özü-nü təmin edən ölkədir. Yəni bu daxili amillər, iqtisadi gücümüz, dünyada artan nüfuzumuz bizə imkan verir ki, bundan sonra da prinsipial xarici siyasətimizi aparaq. Deyə bilərəm ki, bu siyasət beynəlxalq birlik tərəfindən də təqdirlə qarşılanır».

Respublikamızın nüfuzunun yüksəldiyini, onunla əməkdaşlıq etmək istəyən ölkələrin sayının sürətlə artdığını diqqətə çatdıran Prezident İlham Əliyev vurğulamışdır ki, Azərbaycan beynəlxalq arenada özünü etibarlı tərəfdaş və dost kimi təsdiq edə bilmişdir: «Bunun əyani sübutu BMT Təhlükəsizlik Şurasına seçilməyimiz idi. Bu, tarixi bir hadisə idi. Dünyanın birinci aparıcı qurumu olan BMT Təhlükəsizlik Şurasına seçilməyimiz gənc müstəqil dövlət üçün böyük diplomatik və siyasi uğurumuzdur. Əslində, bu, ölkəmizin imicini, qısa müddət ərzində nə qədər böyük yol keçdiyini göstərir. Beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti - 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir, bizə inanmışdır və bilirəm ki, bu inama görə peşman olmamışdır. Çünki biz bəyan etdiyimiz kimi, iki il ərzində BMT Təhlükəsizlik Şurasında beynəlxalq hüququ və ədaləti müdafiə etmişik. Bu gün də müdafiə edirik və hər zaman müdafiə edəcəyik».

Prezident İlham Əliyev vurğulamışdır ki, xarici siyasətdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prioritet məsələlərdən biri olaraq qalır. Dövlətimizin başçısı bildirmişdir ki, Minsk qrupunun həmsədrlərinin bölgəyə səfərlərinin heç bir nəticə verməməsi Ermənistanın qeyri-konstruktiv mövqeyi və münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq cəhdləri ilə bağlıdır: «Son illər ərzində Ermənistanın bu mövqeyi imkan vermir ki, məsələ danışıqlar yolu ilə həllini tapsın. Əlbəttə ki, məsələnin həlli başqa yolla da mümkündür. Biz bunu heç vaxt inkar etməmişik və açıq bəyan etmişik ki, hərbi yol da istisna edilmir. Çünki son aylarda, illərdə beynəlxalq arenada müşahidə olunan mənzərə onu göstərir ki, əfsuslar olsun, beynəlxalq hüquq işləmir. Güc amili əsas rol oynayır. «Kim güclüdür, o da haqlıdır» prinsipi əfsuslar olsun ki, beynəlxalq əlaqələrin konstruksiyasına böyük zərbə vurmuşdur. Yəni bu, reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqlarla hesablaşmalıyıq. Ona görə bizim ordu quruculuğu ilə bağlı ardıcıl siyasətimiz bu gün bir daha göstərir ki, nə qədər düzgün və nə qədər vaxtında atılan addımlar idi. Bu gün biz hərbi potensialımızı gücləndirərək məsələni hərb yolu ilə də həll edə bilərik. Sadəcə olaraq hesab edirik ki, hələ danışıqlar potensialı tükənməyib. Biz siyasi, iqtisadi, o cümlədən hərbi təzyiqlərdən istifadə edərək çalışacağıq ki, məsələ dinc yolla həll edilsin. Ancaq həll edilsin. Bu məsələ dondurulmuş vəziyyətdə qala bilməz. Bunu hər kəs bilməlidir. Bu məsələ ilə məşğul olan vasitəçilər də bunu bilməlidirlər və bilirlər. Hesab edirəm ki, son vaxtlar vasitəçilərin fəaliyyətində müşahidə edilən fəallıq bizim artan iqtisadi və hərbi gücümüzlə əlaqəli olan məsələdir. Çünki onlar da Ermənistan kimi çox yaxşı dərk edirlər ki, istənilən vaxtda biz hərbi gücümüzdən istifadə edərək Qarabağ məsələsini birdəfəlik həll edə bilərik».

Dövlətimizin başçısı vurğulamışdır ki, bu gün Azərbaycan öz milli maraqlarını beynəlxalq səviyyədə təmin edən bir ölkədir: «Bəzi hallarda bu müstəqil siyasət adı altında birtərəfli və radikal siyasət aparılır. Biz bunun da tərəfdarı deyilik. Biz heç bir ölkə ilə qarşıdurma siyasəti aparmaq niyyətində deyilik. Yəni bu, bizim maraqlarımıza cavab vermir. Biz hər bir qarşıdurmaya hazırıq. Lazım gəldikdə sözümüzü deyirik, maraqlarımızı müdafiə edirik. Ancaq özümüz buna heç bir ehtiyac duymuruq. Biz, əksinə, bütün ölkələrlə çox xoş münasibətlər qurmaq əzmindəyik və buna nail olmuşuq. Ancaq milli maraqlarımızın hesabına yox, - əsas məsələ bundadır, - bərabərhüquqlu münasibətlərin hesabına. Ona görə, müstəqil siyasətimiz və beynəlxalq məsələlərlə bağlı göstərdiyimiz prinsipiallıq Asiya ölkələrinin bizə olan rəğbətini artırır. Biz əlbəttə ki, bundan sonra da bu istiqamətdə fəal işləyəcəyik».

Prezident İlham Əliyev müşavirədə Azərbaycanın xarici siyasəti və beynəlxalq arenada cərəyan edən proseslərlə bağlı fikirlərini bölüşmüş, habelə diplomatik korpus rəhbərlərinin qarşısında duran vəzifələrdən söz açmışdır.

# Azərbaycan: Yenidən güclü regional mərkəz

*Avropanın «Neurope.eu» informasiya portalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə müsahibə dərc olunmuşdur. Müsahibəni oxucularımıza təqdim edirik.*

***- Siz ötən ilin oktyabrında keçirilən prezident seçkilərində növbəti dəfə qalib gəldiniz. Bunun başlıca səbəbini necə izah edərdiniz?***

- 2013-cü ildə keçirilən prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olmuşdur. Bu seçkilər vətəndaşların son 10 ildə ölkəmizdə həyata keçirilən siyasi kursa münasibətini göstərdi. Son 10 ildə biz Heydər Əliyevin əsasını qoyduğu yolla irəliləmişik və ölkəmiz, cəmiyyətimiz qarşısında qoyduğumuz məqsədlərin reallaşmasına nail olmuşuq.

***- Yəni 10 il öncə qarşıya qoyduğunuz vəzifələr artıq reallığa çevrilib?***

- Tamamilə doğrudur. İqtisadi inkişaf templəri baxımından Azərbaycan dünya liderinə çevrilmişdir. Bu isə ölkəmizi daha da gücləndirmişdir. Düşünülmüş proqramlara əsaslanan məqsədyönlü fəaliyyət nəticəsində son 10 ildə ümumi daxili məhsul 3,4 dəfə, iqtisadiyyatın qeyri-neft sektoru 2,6 dəfə, büdcə gəlirləri 16 dəfə artmış, həmçinin strateji valyuta ehtiyatlarının həcmi 50 milyard ABŞ dollarını keçmişdir. Milli iqtisadiyyata 170 milyard ABŞ dollarından artıq sərmayə yatırılmışdır.

***- Bütün bunlar əhalinin yaşayış səviyyəsinə təsir edibmi?***

- Əlbəttə, bu cür sürətli inkişaf vətəndaşlarımızın rifahının yüksəlməsinə səbəb olmuşdur. Son 10 ildə əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı isə 5,5 dəfə artmışdır.

***- Bu, həqiqətən yaxşı göstəricidir.***

- Həmçinin yoxsulluğun 49 faizdən 5,3 faizə, işsizliyin isə 5 faizə düşməsi də mühüm nailiyyətlər sırasına daxildir. Son 10 ildə ölkəmizin şəhərləri, qəsəbələri və kəndlərində tikinti-quruculuq işləri görülmüş, bütün şəhərlərdə müasir standartların və qabaqcıl texnologiyaların tətbiqinə başlanmışdır.

***- Bu nailiyyətlər yalnız Azərbaycanda hiss olunur, yoxsa beynəlxalq aləmdə də tanınır?***

- Azərbaycanın uğurları beynəlxalq təşkilatlar və nüfuzlu reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun 2013-2014-cü il üzrə Qlobal Rəqabətlilik Hesabatına əsasən Azərbaycan dünya ölkələri arasında 39-cu sıradadır.

***- Bəs ölkənizin regionda və dünyada statusu barədə nə deyə bilərsiniz?***

- Bu illər ərzində ölkəmizin dünyadakı mövqeyi güclənmişdir. Azərbaycan beynəlxalq münasibətlər sistemində yaxşı imic və hörmət qazanmışdır. Bir çox beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin artıq regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildiyinin sübutudur. Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halı almışdır. 2013-cü ildə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə beynəlxalq konfransın, III Beynəlxalq Humanitar Forumun, İkinci Mədəniyyətlərarası Dialoq Forumunun, Davos Dünya İqtisadi Forumunun və digər yüksək səviyyəli qlobal tədbirlərin keçirilməsi bunu bir daha təsdiq edir.

***- Deməli, dünyada gedən arzuolunmaz proseslər Azərbaycana toxunmamışdır...***

- Xeyr. Bütün dünyada gərginliyin, işsizliyin və yoxsulluğun artdığı bir dövrdə Azərbaycanda tamamilə fərqli proseslər - sürətli inkişaf, tərəqqi, əhalinin rifahının, ictimai və siyasi sabitliyin, milli birliyin və s. yüksəlməsi müşahidə edilmişdir. Düşünürəm ki, bütün bunlar 2013-cü ildə keçirilən seçkilərdə qazanılan qələbənin də əsas səbəbləri olmuşdur.




***- Bu seçkilər beynəlxalq birlik tərəfindən necə qəbul edildi?***

- AŞPA, ATƏT Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər nüfuzlu təşkilatlar birmənalı olaraq seçkilər barədə yüksək fikirlər bildirmiş və seçkilərin azad, ədalətli və şəffaf keçirildiyini vurğulamışlar. Bütün bunlar seçkilərlə bağlı xalqımızın və beynəlxalq ictimaiyyətin fikirlərinin üst-üstə düşdüyünü göstərir. Azərbaycan xalqı verdiyi səslə bu günədək həyatda müşahidə etdiyi siyasətə öz dəstəyini nümayiş etdirmiş və bu siyasətin davamlı olması üçün bizə mandat vermişdir.

**Davamı 2-ci səhifədə**

2 | Vergi orqanlarına işə qəbul olunmuş kadrlarla görüş keçirilmişdir
3 | Vergilər Nazirliyində maliyyə institutları üçün təlimlər keçirilir
4 | Vergi borcu olanların diqqətinə!
5 | Dinamik inkişafı təmin edən vergi strategiyasının müəllifi

# Azərbaycan: Yenidən güclü regional mərkəz

Əvvəli 1-ci səhifədə

***- Gələcək barədə fikirlərinizi bilmək maraqlı olardı.***

- Bizim gələcəklə bağlı planlarımız böyükdür. Gündəliyimizdə bir sıra vacib məsələlər vardır. Azərbaycanın potensialının inkişaf etdirilməsi, iqtisadiyyatımızın rəqabətliliyinin artırılması, müasir cəmiyyət quruculuğu, əhalinin rifahının yaxşılaşdırılması, xarici siyasətin prioritetlərinə uyğun olaraq beynəlxalq mövqeyimizin möhkəmləndirilməsi, korrupsiya, rüşvətxorluğa və digər mənfi hallara qarşı sistemli mübarizənin daha da gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı ardıcıl şəkildə davam etdiriləcəkdir.

***- 2013-cü ildə Azərbaycanda həm də İKT-nin inkişafı sahəsində böyük addımlar atılmışdır.***

- Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətin üstünlüyü ondadır ki, bütün işlər ölkənin real imkanları, ən yaxşı beynəlxalq təcrübələr və xüsusi proqramlar üzərində qurulur. Təcrübə göstərir ki, müasir texnologiyaların tətbiqi rəqabətədavamlı iqtisadiyyat üçün ilkin şərtdir. Bu səbəbdən də innovasiyadan təkcə iqtisadiyyatda deyil, eyni zamanda, digər sahələrdə də geniş istifadə edilir. İnformasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir və böyük gələcəyə malikdir. 2003-cü ildə Milli İKT Strategiyasının, sonrakı illərdə isə «Elektron Azərbaycan» Dövlət Proqramının qəbul olunması bu sahənin inkişafına böyük təkan vermişdir. Müstəqillik illərində Azərbaycanda İKT-nin inkişafına 3 milyard ABŞ dollarından artıq vəsait yatırılmışdır. Nəticədə, son 10 ildə informasiya və rabitə sahəsinin inkişafı 8,2 dəfə artmışdır. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə buraxılması və ölkədə kosmik sənayenin əsasının qoyulması tarixi hadisədir. Növbəti illərdə daha iki peykin orbitə buraxılması ilə bağlı işlər aparılır.

***- Bütün bunların fonunda internetin inkişafını necə qiymətləndirmək olar?***

- Son illər ərzində internet də sürətlə inkişaf etmişdir. Beynəlxalq Telekommunikasiya Təşkilatının hesabatına əsasən, Azərbaycan əhalisinin 70 faizi internetdən istifadə edir. Biz Azərbaycanın bütün şəhərlərinə genişzolaqlı internet xətlərinin çəkilməsinə başlamışıq.

***- Azərbaycanın müəllifi olduğu innovasiyalar haqqında nə deyə bilərsiniz?***

- Biz dünyada mövcud olan texnoloji yenilikləri tətbiq etməklə yanaşı, özümüz də bəzi innovasiyaların yaradılması ilə bağlı təşəbbüslər göstəririk. Nümunə kimi Azərbaycan brendi olan Vətəndaşlara Xidmətlər və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və onun «ASAN xidmət» mərkəzlərini qeyd edə bilərik. «ASAN xidmət» vətəndaşların məmnunluğu prinsipinə əsaslanan və bir çox xidmətin bir mərkəzdə cəmləşdirildiyi təsisatdır. «ASAN xidmət» mərkəzlərinin fəaliyyət sferasına dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin səmərəli təşkili və bu sahədə idarəçilik sisteminin müasirləşdirilməsi daxildir. Bu mərkəzlər mütərəqqi hökumət-vətəndaş münasibətlərinin nümunəsidir. Mərkəzlər hazırda 25 sayda ictimai xidmət təklif edir. Təsadüfi deyil ki, bir il ərzində bir milyondan çox vətəndaş bu mərkəzlərə müraciət etmişdir. Buna görə də «ASAN xidmət» mərkəzlərinin təklif etdiyi xidmətlərin miqyasını genişləndirmək niyyətindəyik.

***- Gələcəyə nəzər salsaq, innovativ texnologiyalar Azərbaycanın inkişafında necə rol oynayacaqdır?***

- Qabaqcıl texnologiyaların Azərbaycanın gələcək inkişafında oynayacağı rol barədə qeyd edə bilərəm ki, iqtisadiyyatın dinamik inkişafını asanlaşdırmaq və rəqabətliliyi artırmaq üçün qabaqcıl elmi və texnoloji nailiyyətlərə əsaslanan İKT sahələrini inkişaf etdirmək, bu sferaya yerli və xarici sərmayələri cəlb etmək, ixtisaslı mütəxəssis bazası yaratmaq və s. üçün xüsusi addımlar atılır. Bu məqsədlərə nail olmaq üçün Yüksək Texnologiyalar Parkı və İnformasiya Texnologiyalarının İnkişafı Fondu təsis edilmişdir. İnnovasiyaya əsaslanan güclü iqtisadiyyatın yaradılması əsas məqsədlərimizdən biridir və biz dayanmadan bu istiqamətdə irəliləyirik.

***- Siz 2014-cü ili «Sənaye ili» elan etmisiniz. Bundan məqsəd nədir və hansı işlərin görülməsi nəzərdə tutulmuşdur?***

- Azərbaycan əvvəllər aqrar ölkə hesab olunurdu. 1970-1980-ci illərdə sənayenin inkişafı üçün ciddi addımlar atıldı, yüzlərlə yeni sənaye müəssisəsi yaradıldı. Amma SSRİ-nin süqutu keçmiş sovet respublikaları arasında əlaqələrin itirilməsinə səbəb oldu. Ümumilikdə, planlı iqtisadiyyat uğursuzluqla nəticələndi. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü, həmin dövrdə ölkədə baş alıb gedən anarxiya, istehsal müəssisələrinin köhnəlməsi, texnoloji cəhətdən gerilik iqtisadi tənəzzülə və istehsal prosesinin dayanmasına gətirib çıxardı. Yalnız ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində 2000-ci illərin əvvəllərində istehsalı 1990-cı ilin səviyyəsinə qaldırmaq mümkün oldu.

Son 10 ildə neft və qaz sahəsində əldə edilən gəlirlərin müəyyən qismi xüsusi proqramlar çərçivəsində milli iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, yüksək texnologiyalı sənayenin formalaşdırılmasına yönəldilmişdir. Nəticədə, qeyri-neft sektorunda hər il 10 faiz artım qeydə alınır. Bundan əlavə, sahibkarlığın inkişafına göstərilən hərtərəfli dəstək, iri sərmayə proqramlarının həyata keçirilməsi, sosial-iqtisadi infrastrukturun yenidən qurulması və qabaqcıl texnologiyalara əsaslanan rəqabətədavamlı müəssisələrin yaradılması sənaye istehsalı həcminin 2,7 dəfə artmasına səbəb olmuşdur.

Hazırda əsas məqsədlərimizdən biri Azərbaycanı güclü sənaye ölkəsinə çevirmək üçün mümkün imkanlardan istifadə etməkdir. Artıq sənayenin şaxələndirilməsi və modernləşdirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Biz mövcud təbii və iqtisadi resursları istehsal dövriyyəsinə cəlb edirik, yeni istehsal sahələri və sənaye parkları yaradırıq, innovasiyaların tətbiqini sürətləndiririk. Buna görə də 2014-cü il «Sənaye ili» elan olunmuş, cari ildə həyata keçiriləcək tədbirlərin ümumi planı hazırlanmış və təsdiq edilmişdir. Eyni zamanda, «Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nın hazırlanması nəzərdə tutulur. İnanırıq ki, topladığımız təcrübə və Azərbaycanın iqtisadi potensialı bizə məqsədlərimizə çatmaq imkanı verəcəkdir.

***- Regionların sosial iqtisadi inkişafı ilə bağlı üçüncü Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram 2014-2018-ci illəri əhatə edir. İlk iki proqramın həyata keçirilməsini necə qiymətləndirirsiniz və üçüncü proqramdan nə gözlənilir?***

- 2004-cü ildə ilk regional inkişaf proqramını qəbul edərkən məqsədimiz bölgələrin hərtərəfli inkişafını təmin etmək və paytaxtla ölkənin qalan hissəsi arasındakı uyğunsuzluğu aradan qaldırmaq olmuşdur. Hətta 2003-cü ildə keçirilən seçkilərdən öncə demişdim ki, əgər xalq mənə etimad göstərsə, ilk növbədə regionların inkişafı məsələsi ilə məşğul olacağıq və bu məqsədlə xüsusi dövlət proqramı qəbul ediləcək. Bu, baş verdi. 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı, bu proqramlara əlavə olaraq 250 sənədin imzalanması və həyata keçirilməsi regionların inkişafında dönüş nöqtəsi olmuş və bölgələrimizin sosial-iqtisadi mənzərəsini dəyişmişdir. Nəticədə regionlardakı ictimai xidmətlərin keyfiyyəti və sosial infrastruktur əsaslı dərəcədə təkmilləşmiş, biznes mühiti daha əlverişli olmuş, sərmayələr artmış, minlərlə yeni müəssisə istifadəyə verilmiş və 900 mini daimi olmaqla, 1,2 milyondan artıq yeni iş yeri yaradılmışdır. Son 10 ildə regionlarda məhsul buraxılışı 3,2 dəfə, sənaye istehsalı isə 3,1 dəfə artmışdır. Azərbaycanın bütün regionları və qəsəbələri abadlaşmış və müasirləşmişdir. İnamla qeyd edə bilərəm ki, həyata keçirilmiş proqramlar ölkəmizin regionlarının, ümumilikdə Azərbaycanın iqtisadi potensialının inkişafına böyük töhfə vermişdir.

***- Qarşınıza qoyduğunuz strateji məqsəd nədir?***

- Gündəliyimizdəki strateji məqsəd Azərbaycanın müstəqilliyini bundan sonra da gücləndirmək və ölkəmizi dünyanın ən inkişaf etmiş və rəqabətə davamlı ölkələri səviyyəsinə yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regionlardakı sürətli inkişaf davam etdiriləcəkdir. İnanıram ki, «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı»nın və digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcək və Azərbaycan dünyanın aparıcı ölkələri sırasına çıxacaqdır.

***- Yeni enerji layihələrinin region və dünya üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

- Hazırda Azərbaycan bir sıra yeni transmilli və regional layihələr irəli sürmüşdür. Ölkəmizin həyata keçirdiyi enerji siyasəti təkcə bizim üçün deyil, həm də region və dünya üçün böyük əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, 2013-cü il dekabrın 17-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin qaz ehtiyatlarının hasilatı və dünya bazarlarına çatdırılması üzrə «Şahdəniz-2» beynəlxalq yekun investisiya qərarı imzalanmışdır. Hesab edirəm ki, TAP və TANAP layihələri ilə yanaşı, «Şahdəniz-2» dünyanın enerji xəritəsində yeni vəziyyətin yaranmasına səbəb olacaq və tarixə «XXI əsrin kontraktı» kimi düşəcəkdir.

***- Ölkənin həm iqtisadi, həm də sosial inkişafı, eyni zamanda, həm də güclü beynəlxalq status deməkdir. Xarici siyasətinizin uğurları barədə nə deyə bilərsiniz?***

- Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən fəal xarici siyasət ölkəmizin nüfuzunun yüksəlməsini, beynəlxalq aləmə daha sıx inteqrasiyasını, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin etmişdir. Bu gün Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərlə və beynəlxalq əlaqələr sistemi ilə bağlı öz mövqeyi olan və böyük beynəlxalq nüfuza malik bir ölkə hesab edilir. 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi tarixi nailiyyət və xarici siyasətimizin böyük uğuru, həmçinin dünyadakı nüfuzumuzun göstəricisi olmuşdur. Aydın görünür ki, beynəlxalq aləm dövlətimizin mövqeyini dəstəkləyir, addımlarımızı təqdir edir. Azərbaycan bütün beynəlxalq təşkilatlarda ləyaqətlə çıxış edir və öz maraqlarını hər şeydən üstün tutur. BMT Təhlükəsizlik Şurasına ikiillik üzvlüyümüz, həmçinin təşkilata sədrlik dövründə Azərbaycan qlobal təhlükəsizliyə, dünyada sülhün bərpasına və ölkələr və sivilizasiyalararası dialoqun inkişafına öz töhfəsini vermişdir.

***- Beynəlxalq təşkilatlarla, xüsusilə Avropa İttifaqı ilə münasibətlər hansı vəziyyətdədir?***

- Bizim dünyanın aparıcı beynəlxalq təşkilatları və ayrı-ayrı ölkələrlə münasibətlərimiz də inkişaf etmişdir. Azərbaycan ATƏT, Avropa Şurası, İƏT və digər nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli münasibətlərini davam etdirmişdir. Ötən il biz viza qaydalarının sadələşdirilməsi ilə bağlı Aİ ilə mühüm bir müqavilə imzaladıq. Bu, Aİ ilə əlaqələrin göstəricisidir. Əminəm ki, əməkdaşlığımızı inkişaf etdirmək üçün Aİ ilə strateji tərəfdaşlıq formatının yaradılmasına nail olacağıq.

***- Yeni tərəfdaşlıq münasibətləri kontekstində Azərbaycanın nailiyyətləri barədə nə deyə bilərsiniz?***

- Region ölkələri və dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişafına əlavə olaraq biz qeyri-ənənəvi tərəfdaşlarla da əlaqələr qururuq. Avropa və Asiyanın ənənəvi ölkələri ilə əməkdaşlıq münasibətlərini genişləndirməklə yanaşı, biz həm də Qoşulmama Hərəkatının üzvləri olan Latın Amerikası və Afrika ölkələri ilə siyasi, iqtisadi və humanitar əlaqələri inkişaf etdiririk. Bu, bizim xarici siyasətimizin prioritetlərindən biridir.

Artıq bəzi Latın Amerikası ölkələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəkləmişlər. Ümumilikdə, dünyanın 10 ölkəsi Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində törətdiyi qırğını soyqırımı aktı kimi tanımışdır. Bu ölkələrin parlamentləri müvafiq qərarlar qəbul etmişlər. Növbəti illərdə biz ölkəmizin siyasi və iqtisadi potensialını daha da gücləndirməyə, beynəlxalq nüfuzumuzu artırmağa, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə əməkdaşlığımızı genişləndirməyə davam edəcəyik. Bizim xarici siyasətimiz milli maraqların qorunması üzərində qurulmuşdur və bu istiqamətdə lazımi addımlar atılacaqdır.

***- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hər hansı irəliləyişdən danışmaq olarmı?***

- Təəssüflə qeyd edim ki, xarici siyasətimizin mərkəzində dayanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş əldə edilməmişdir. Ermənistan tərəfi danışıqlar prosesini gecikdirmək üçün müxtəlif bəhanələrdən istifadə edir və status-kvonu saxlamağa çalışır. Ötən ilin sonlarında danışıqlarda müşahidə edilən canlanma bizə 2014-cü ildə irəliləyiş olacağı ilə bağlı müəyyən ümidlər verdi. Ermənistan rəhbərliyi başa düşməlidir ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç zaman imkan verməyəcəkdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və həll ediləcəkdir. Münaqişə həll olunmadıqca, Ermənistan dövləti bütün transmilli və regional layihələrdən kənarda qalacaq, erməni xalqının acınacaqlı vəziyyəti daha da pisləşəcək və ölkənin bütün imkanları tamamilə tükənəcəkdir.

***- Azərbaycan 2015-ci ildə Birinci Avropa Oyunlarına ev sahibliyi edəcəkdir. Hazırlıq prosesi necə gedir?***

- 2014-cü il Birinci Avropa Oyunlarına hazırlıq baxımından çox əhəmiyyətli ildir. Bildiyiniz kimi, bu cür genişmiqyaslı yarışlara hazırlıq prosesi 7-8 il vaxt tələb edir. Avropa Oyunlarını keçirmək üçün bizim yalnız iki il yarım vaxtımız var idi. Əminəm ki, yarışlarla əlaqədar bütün məqsədlərə nail olacağıq. Təşkilat Komitəsi yaradılmışdır və olduqca məhsuldar fəaliyyət göstərir. Oyunların keçiriləcəyi məkanların tikintisi bu ilin sonunadək tamamlanacaqdır. Amma hazırlıq prosesi müxtəlif binaların tikintisi ilə məhdudlaşmır. Təhlükəsizlik, nəqliyyat, Olimpiya Kəndinin yaradılması, qonaqların və idmançıların yerləşdirilməsi, məşqlərin keçirilməsi və s. məsələlər böyük diqqət və səy tələb edir. Azərbaycanın mövcud potensialını, müasir idman infrastrukturunun mövcudluğunu və beynəlxalq tədbirlərin keçirilməsi sahəsində təcrübəsini nəzərə alsaq, əminəm ki, Birinci Avropa Oyunlarını gözləniləndən də yüksək səviyyədə təşkil edəcəyik. Faktiki olaraq, Birinci Avropa Oyunları ilə bağlı Azərbaycanda yaradılmış standartlar gələcək Avropa Oyunları üçün əsas təşkil edəcəkdir.

## Vergi orqanlarına işə qəbul olunmuş kadrlarla görüş keçirilmişdir

*İyulun 2-də vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov yeni işə qəbul olunmuş gənclərlə görüşmüş, onları təbrik edərək uğurlar arzulamışdır.*



Bildirilmişdir ki, Vergilər Nazirliyi ölkəmizdə işə qəbulu test üsulu əsasında keçirməyə başlamış ilk mərkəzi icra hakimiyyəti orqanıdır. Bu il dövlət vergi orqanlarında işə qəbulla bağlı test imtahanında 1390 nəfər iştirak etmiş, onlardan 76 nəfəri test mərhələsində, 58 nəfəri isə Vergilər Nazirliyində keçirilən müsahibədə uğur qazanaraq vergi xidməti orqanlarında işlə təmin olunmaq imkanı əldə etmişdir. Hər bir namizədlə fərdi qaydada müsahibə aparılmış, onların bilik və bacarıqları, ümumi dünyagörüşü və təhlil apara bilmək qabiliyyətləri yoxlanılmışdır. İşə qəbul prosesinin hər iki mərhələsindən keçmiş namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatına daxil edilmişdir. Diqqətə çatdırılmışdır ki, indiyədək keçirilmiş 9 müsabiqə nəticəsində 1050-yə yaxın gənc kadr işə qəbul olunmuşdur ki, bu da hazırda vergi orqanlarında çalışan işçilərin təxminən əlli faizinə yaxındır.

Vergi orqanlarının fəaliyyətinin xüsusiyyətlərindən söz açan S.Məmmədxanov Vergilər Nazirliyində kadrların peşə hazırlığı səviyyəsinin daim yüksəldilməsi məqsədilə insan resurslarının inkişafı üzrə konsepsiyanın uğurla həyata keçirildiyi, bilik və bacarıqlarını artırmaq üçün onlara hər cür şərait yaradıldığı barədə də gələcək vergi orqanı əməkdaşlarına ətraflı məlumat vermişdir. Tədbirin sonunda yeni işə təyin olunmuş 21 nəfərə xidməti vəsiqələr təqdim edilmişdir.

## Qanunu pozanlara qarşı operativ nəzarət tədbirləri görülür

2014-cü ilin iyun ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 5765 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir.

2662 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu; 731 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz alınıb-satıldığı və ya dəyişdirildiyi; 1263 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir.

Operativ nəzarət tədbirləri zamanı 378 vergi ödəyicisi tərəfindən 587 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 319 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 153 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 1630 ədəd mal olduğu aşkarlanmışdır. Aşkar edilmiş faktlarla bağlı tədbirlər görülmüşdür.

# Vergilər Nazirliyində maliyyə institutları üçün təlimlər keçirilir

*FATCA adlandırılan Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act) ABŞ Konqresi tərəfindən 18 mart 2010-cu il tarixində qəbul edilmiş və 1 yanvar 2013-cü ildən qüvvəyə minmişdir. Bu Akt ABŞ vətəndaşları və digər vergi ödəyicilərindən onların başqa dövlətlərdə olan maliyyə hesabları haqqında, xarici maliyyə institutlarından özlərinin bu cür müştəriləri haqqında məlumatların ABŞ-ın Daxili Gəlirlər Xidmətinə (İRS) açıqlanmasını tələb edir. FATCA-nın əsas məqsədi ABŞ vergi ödəyiciləri tərəfindən vergidən yayınmaya qarşı mübarizə və federal vergi gəlirlərinin artırılmasıdır.*



Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli 103s nömrəli sərəncamı ilə ABŞ-ın Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktının (FATCA - Foreign Account Tax Compliance Act) tətbiqi məqsədilə qarşılıqlı məlumat mübadiləsini nəzərdə tutan Hökumətlərarası Sazişin bağlanması məqbul hesab edilmişdir. Qeyd edilən sərəncamla Hökumətlərarası Saziş əsasında məlumat mübadiləsinin aparılması məqsədilə səlahiyyətli orqan Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmişdir.

FATCA-nın tətbiqi ilə bağlı maliyyə institutlarının, o cümlədən bankların, müvafiq sığorta təşkilatlarının və digər aidiyyəti şəxslərin məlumatlandırılması, bu istiqamətdə onlara əməli köməklik göstərilməsi məqsədilə Vergilər Nazirliyinin əmri ilə işçi qrup yaradılmışdır.

Ötən dövr ərzində FATCA barədə vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə işçi qrup tərəfindən Vergilər Nazirliyinin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılmış, maliyyə institutlarının ABŞ-ın Daxili Gəlirlər Xidmətinin rəsmi internet səhifəsində qeydiyyatdan keçmələri üçün Təlimat hazırlanmışdır.

7 iyul 2014-cü ildən etibarən Vergilər Nazirliyində işçi qrup tərəfindən hazırlanmış təlim materialları əsasında maliyyə institutlarına ABŞ-ın Daxili Gəlirlər Xidmətinin rəsmi səhifəsində qeydiyyatdan keçmələri üçün təlimlərə start verilmişdir. Məqsəd maliyyə institutları tərəfindən əməletmənin lazımi səviyyəsinin təmin edilməsi üçün onlara qeydiyyat prosesində yardım etmək, suallarını cavablandırmaq, eləcə də fikir mübadiləsi aparmaqdır.

Təlimlərin, bütün maliyyə institutlarını əhatə etməklə, iyul ayının sonuna qədər davam etdirilməsi nəzərdə tutulmuşdur.

# 2014-cü ilin 1-ci yarımilliyində Vergilər Nazirliyinin xətti ilə büdcəyə 3 milyard 593 milyon 835 min manat vəsait daxil olmuşdur

2014-cü ilin yanvar-iyun aylarında Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 3 milyard 593 milyon 835 min manat təşkil etmişdir. Bu məbləğin 32,9 faizi mənfəət vergisinin, 28,3 faizi əlavə dəyər vergisinin, 12,8 faizi fiziki şəxslərin gəlir vergisinin, 10,4 faizi aksizlərin, 15,6 faizi isə digər vergilərin payına düşür.

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 2 milyard 51 milyon 396,5 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,0 faiz çoxdur.

1-ci yarım il ərzində respublika üzrə 42 min 681vergi ödəyicisi qeydiyyata alınmış, 1 iyul 2014-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 574 min 935-ə çatmışdır.

2014-cü ilin yanvar-iyun ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,9 faiz təşkil etmişdir.

# Vergilər Nazirliyi növbəti dəfə IOTA İcraiyyə Şurasına üzv seçilmişdir

*3-4 iyul 2014-cü il tarixlərində Serbiya Respublikasının paytaxtı Belqrad şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) 18-ci Baş Assambleyası keçirilmişdir. Tədbirdə 49 ölkənin vergi orqanı və 11 beynəlxalq və regional təşkilatdan 150-dən çox nümayəndə, habelə vergi tədqiqatçıları və professorlar iştirak etmişlər.*

Əsas mövzusu «Vaxtında müdaxilə - düzgün vaxt seçimi ilə ən yaxşı təsir: əməletmə davranışlarına təsir göstərmək üçün məlumatlardan və faktlardan istifadə və vergi ödəyiciləri ilə iş» olan Baş Assambleya öz işini paralel sessiyalarda davam etdirmişdir. «Vergi ödəyiciləri ilə iş və əməletmə davranışlarına təsir» adlı sessiyada vergilər nazirinin müşaviri Ələkbər Məmmədov tərəfindən «Gənclərin təhsili və nümunəvi vergi ödəyicilərinin hazırlanması» mövzusunda təqdimat edilmişdir. Təqdimat zamanı Vergilər Nazirliyi tərəfindən həyata keçirilən layihələr, o cümlədən vergilərin məcburi yığılmasından könüllü ödənilməsinə keçid, könüllü əməletmənin yüksəldilməsində təhsilin rolu, vergi biliklərinin aşılanması və vergi ödəyicilərinin məlumatlılıq səviyyəsinin artırılması, nümunəvi vergi ödəyicilərinin yetişdirilməsi, əsas təhsil alətləri, təhsilin həcmi, «Vergi dostları» layihəsi, tədris konsepsiyası və tədrisin perspektivləri barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Təqdimat iştirakçılar tərəfindən böyük maraqla qarşılanmış, burada qeyd olunan məsələlərin Assambleyanın yekun bəyannaməsinə salınması qərara alınmışdır.



Assambleyanın inzibati sessiyasında təşkilatın 2013-cü il üzrə maliyyə hesabatı və daxili audit hesabatı təsdiq edilmiş, eləcə də IOTA-nın yeni layihələri barədə məlumatlar verilmişdir. IOTA prezidenti, İcraiyyə Şurasının üzvləri və daxili auditorların müəyyən edilməsi üzrə seçkilər keçirilmişdir.

Niderland Krallığının Vergi və Gömrük Administrasiyası 2014-2015-ci il üçün təşkilatın yeni prezidenti, İtaliya və Norveç nümayəndələri isə daxili auditorları seçilmişlər.

Növbəti birillik müddət üçün IOTA-nın İcraiyyə Şurasına seçkinin nəticələrinə əsasən, Azərbaycan Respublikasının Vergilər Nazirliyi Niderland, Avstriya, İrlandiya, İspaniya, Finlandiya, Fransa, Çex Respublikası və Rumınıyanın vergi orqanları ilə birlikdə İcraiyyə Şurasının üzvü seçilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Vergilər Nazirliyi MDB ölkələri arasında IOTA-nın İcraiyyə Şurasına üzv seçilmiş ilk vergi administrasiyasıdır və artıq ardıcıl olaraq ikinci müddət üçün bu mötəbər quruma üzv seçilir.

# Fransa-Azərbaycan əməkdaşlığı beynəlxalq mediada

*Fransanın «fr. globalvoicesonline.org» internet qəzetində Fransa-Azərbaycan tərəfdaşlığından bəhs edən «Fransa-Azərbaycan: energetika sahəsində tərəfdaşlıq naminə» sərlövhəli məqalə dərc olunmuşdur.*

Məqalədə Prezident Fransua Ollandın may ayının əvvəllərində Bakıya səfərinin ölkəsinin Rusiyadan enerji asılılığına son qoyulması, Azərbaycan ilə iqtisadi və energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədi daşıdığı diqqətə çatdırılmışdır. Həmçinin Qərb bazarlarına enerji ehtiyatlarının nəqli sahəsində Azərbaycanın Xəzər dənizi hövzəsində mühüm rol oynadığı, Avropanın enerji təhlükəsizliyində alternativ mənbə olduğu qeyd edilmişdir.

Fransua Ollandın Prezident İlham Əliyev ilə görüşündə, ilk növbədə, enerji təhlükəsizliyini müzakirə etdiyini və bu baxımdan Azərbaycanın strateji rolunun yüksək qiymətləndirildiyini diqqətə çatdıran müəllif son illər ölkəmizin neft və qaz ixracı sahəsində qazandığı uğurlardan söhbət açmışdır.

Milli Assambleyanın deputatı, Fransa-Azərbaycan dostluq qrupunun sədri, keçmiş nəqliyyat naziri Tierri Marianinin 2013-cü ilin sonlarında dərc etdirdiyi məqaləyə istinad edilərək, Azərbaycanın neft və qaz istehsalından asılılığı azaltmaq məqsədilə qeyri-neft sektorunun, infrastrukturun və yüksək texnologiyanın inkişaf etdirilməsi istiqamətində mühüm layihələr həyata keçirdiyi vurğulanmışdır.

Azərbaycanın bu sektorlar arasında energetika texnologiyasını inkişaf etdirmək istəyinin xüsusi qeyd olunduğu məqalədə dövlətin günəş və külək enerjisindən istifadəyə də önəm verdiyi və bu istiqamətdə işlər aparıldığı bildirilmişdir. İki ölkə arasında əməkdaşlığın və tərəfdaşlığın gələcək inkişafı ilə bağlı əldə edilən razılığa əsasən Fransanın Souez şirkətinin Azərbaycanda torpaq sahələrinin ekoloji probleminin həllinə əməli yardım göstərməsi barədə, habelə Azərbaycan dəmir yollarının yenidən qurulmasında «Alstom» şirkəti ilə əldə olunan razılıq da öz əksini tapmışdır.

Xatırladaq ki, bu il may ayının 22-23-də Azərbaycanın Respublikasının vergilər naziri Fazil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Fransada işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində vergilər naziri İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Parisdə yerləşən mənzil-qərargahında baş katib Anxel Qurria ilə görüşmüşdür. Tədbir zamanı Azərbaycanla İƏİT arasında «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Konvensiyaya edilmiş dəyişikliklərə qoşulması haqqında protokolun imzalanma mərasimi olmuşdur.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi minimallaşdırılmasının səbəbləri

Vergitutma ilə bağlı baş verən sosial-iqtisadi proseslərin təzahürlərindən biri olan vergi minimallaşdırılması amilinin yaranma səbəblərinin araşdırılması həmişə vergi orqanları qarşısında duran aktual məsələlərdən biri olmuşdur. Dünya təcrübəsində sahibkarlarda vergilərdən yayınma istəyinin formalaşmasının bir neçə səbəbi göstərilir. Vergi minimallaşdırılması ilə bağlı iqtisadi ədəbiyyatda irəli sürülən mülahizələr də onun baş verməsində müxtəlif səbəblərin olduğunu qeyd etməyə əsas verir. Nəzəri olaraq həmin səbəbləri əsasən dörd qrupa bölürlər: əxlaqi-psixoloji, siyasi, iqtisadi və texniki-hüquqi.

Vergilərin minimallaşdırılmasının əxlaqi-psixoloji səbəbləri əsas etibarilə vergi qanunlarının xarakterindən irəli gəlir. Adətən, qanunlar ümumi xarakter daşıyır və onların müddəaları hər bir şəxs üçün məcburidir. Lakin digər qanunlardan fərqli olaraq, vergi qanunları heç də həmişə ümumi xarakter daşımır. Buna misal olaraq vergi qanunvericiliyində nəzərdə tutulan vergi güzəştlərini göstərmək olar. Belə ki, bir çox hallarda onlar yalnız vergi ödəyicilərinin ayrıca götürülmüş qruplarına şamil olunur. Bunun nəticəsində isə güzəşt əldə edən vergi ödəyiciləri başqaları ilə müqayisədə daha əlverişli şəraitdə olurlar. Belə olan halda, güzəştdən istifadə etməyən vergi ödəyicilərində özünü güzəştdən istifadə edən şəxslərlə bərabər tutmaq istəyi yaranır. Çox vaxt isə belə istək özünü vergilərdən yayınma cəhdi kimi büruzə verir.

*Vergi ödəyicisinin maliyyə vəziyyəti dayanıqlı olduqda, o, öz reputasiyasını itirməmək üçün vergidən yayınmağa meyilli olmur*

Qeyd olunanlarla yanaşı, vergitutma obyektlərinin müəyyən olunması ilə əlaqədar vergi qanunvericiliyində dəyişikliklərin tez-tez baş verməsini də müsbət hal kimi qeyd etmək olmaz. Çünki qanunvericiliyin tez-tez dəyişməsi vergi ödəyicilərində belə dəyişikliklərə əməletmənin məcburi olmasına qeyri-ciddi münasibət yaradaraq onları vergidən yayınmağa vadar edir. Digər tərəfdən, başqa qanunlardan fərqli olaraq, bəzi insanlar adətən vergi qanunlarını qərəzli hesab edirlər. Çünki vergi qanunları dövlət tərəfindən müəyyən olunmaqla vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin müəyyən hissəsinin məcburi qaydada özgəninkiləşdirilməsini nəzərdə tutur. Ümumiyyətlə götürsək, vergi ödəyiciləri dövləti böyük kreditor hesab edərək, həmişə ona olan borclarının qaytarılmasından yayınmağa imkan axtarırlar.

Vergi minimallaşdırılmasının siyasi səbəbləri onunla bağlıdır ki, vergilərin ödənilməsi ilə dövlət təkcə öz xərclərinin maliyyələşdirilməsini deyil, həm də ölkədə sosial-iqtisadi siyasətin həyata keçirilməsini təmin edir. Sosial siyasətin alətlərindən biri olmaqla, ilk baxışdan vergilər əhalinin imkanlı təbəqələrinin maraqlarının təmin olunmasında istifadə edilən bir vasitə kimi görünə bilər. Bu halda, vergidən yayınma etiraz aksiyası kimi də qəbul edilə bilər.

İqtisadi siyasətin aləti olmaqla yanaşı, vergilər iqtisadiyyatın ayrıca götürülmüş hər hansı bir sahəsinin daha da inkişaf etdirilməsində də istifadə olunur. Bu zaman iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərən müəssisələr vergidən yayınmağa çalışırlar ki, bu da təkcə onların şəxsi maraqlarından deyil, həm də müəssisəni əvvəlki səviyyədə saxlamaq istəyindən irəli gəlir. Ümumiyyətlə, iqtisadi səbəblər iki qrupa bölünür: bunlardan biri vergi ödəyicisinin maliyyə vəziyyəti, digəri isə ümumi iqtisadi vəziyyətlə bağlıdır. Bəzən vergi ödəyicisinin maliyyə vəziyyəti vergidən yayınmanın əsas faktorlarından birinə çevrilir. Bu zaman vergi ödəyicisi vergidən yayınma nəticəsində əldə etdiyi qənaətin və ona qarşı tətbiq olunacaq sanksiyanın məbləğlərini müqayisə edir. Qeyd etmək lazımdır ki, vergi ödəyicisinin maliyyə vəziyyəti dayanıqlı olduqda, o, öz reputasiyasını itirməmək üçün vergidən yayınmağa meyilli olmur. Lakin maliyyə vəziyyəti zəif olduqda və yaxud iflasa uğramaq təhlükəsi yarandıqda vergi ödəyicisi «batmamaq» üçün vergidən yayınmaqdan bir vasitə kimi istifadə etməyə çalışır.

Ümumi iqtisadi vəziyyətdən irəli gələn səbəblər iqtisadi böhran vaxtı, yaxud da iqtisadiyyatın sürətli inkişafı və beynəlxalq iqtisadi əlaqələrin genişləndiyi bir dövrdə yarana bilər. Belə ki, iqtisadi böhran dövrlərində iqtisadiyyatın sabitliyi üçün dövlət müxtəlif tədbirləri həyata keçirməli olur. Bu zaman bazar qiymətləri ilə yanaşı, tənzimlənən qiymətlər müəyyən edilir ki, o da vergidən yayınma hallarına şərait yarada bilər. Çünki leqal bazarla yanaşı, «qara» bazar da fəaliyyət göstərməyə başlayır. Təbii ki, belə bazarlarda aparılan əməliyyatlar vergitutmadan kənarda qalır. İlk baxışdan paradoksal görünsə də, iqtisadiyyatın inkişaf etdiyi və beynəlxalq əməkdaşlığın genişləndiyi bir dövrdə də vergidən yayınma halları arta bilər. Belə ki, bir qayda olaraq, vergi nəzarəti ancaq dövlətin ərazisi ilə məhdudlaşır və ondan kənara çıxmır. Bunun da nəticəsində vergi ödəyicilərinin xaricdə əldə etdikləri gəlirlərin vergidən yayındırılmasına şərait yaranır.

Vergi minimallaşdırılmasının texniki-hüquqi səbəbləri, əsasən, vergi qanunvericiliyinin qeyri-təkmil olmasıdır. Bu, daha çox vergi qanunvericiliyinin mürəkkəbliyindən və ziddiyyətli məqamlarından irəli gəlir. Belə hallarda vergi nəzarətinin səmərəliliyi aşağı düşür və vergi ödəyicilərinin vergidən yayınmalarına şərait yaranır.

Sonda qeyd etmək lazımdır ki, verginin minimallaşdırılması təkcə bir səbəbdən deyil, həm də yuxarıda göstərilən bir neçə səbəbin eyni zamanda olmasından irəli gələ bilər. Buna görə də vergidən yayınmanın səbəblərinin aradan qaldırılmasına yönəldilən tədbirlər, yalnız kompleks xarakter daşıdığı halda, lazımi nəticəyə nail olmaq olar.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi güzəşti

***Mən vergi uçotuna alınaraq hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul oluram: sənaye parkının qeydiyyat şəhadətnaməsini almışam və orada fəaliyyət göstərirəm. Fəaliyyətim üzrə qanunvericilikdə hansı vergi güzəştləri nəzərdə tutulub?***

Vergi Məcəlləsinin (VM) 13.2.52-ci maddəsinə əsasən, sənaye parkının rezidenti - müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada sənaye parkının qeydiyyat şəhadətnaməsini almış və sənaye parkında fəaliyyət göstərən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxsdir.

VM-in 102.1.21-ci maddəsində qeyd edilmişdir ki, müvafiq icra hakimiyyəti orqanının qərarı ilə yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin sənaye, yaxud texnologiyalar parklarında fəaliyyətdən əldə etdikləri gəlir (əməkhaqqından tutulan gəlir vergisi istisna olmaqla) - qanunvericiliyə uyğun olaraq sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 7 il müddətinə gəlir vergisindən azaddır.

VM-in 164.1.16-cı maddəsinə görə, müvafiq icra hakimiyyəti orqanının qərarı ilə yaradılan sənaye, yaxud texnologiyalar parklarında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - rezidentin sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındığı tarixdən 7 il müddətinə ƏDV tutulmur.

VM-in 199.7-cı maddəsinə əsasən, həmin şəxslər 7 il müddətinə sənaye, yaxud texnologiyalar parklarında əmlaklarına görə əmlak vergisini ödəməkdən, eləcə də VM-in 207.3-cü maddəsinə əsasən, sənaye, yaxud texnologiyalar parklarında istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.

VM-in 67-1.1-ci maddəsində qeyd edilmişdir ki, sənaye, yaxud texnologiyalar parklarının rezidenti sənaye, yaxud texnologiyalar parklarında yerləşən təsərrüfat və digər vergitutma obyektlərini həmin Məcəllə ilə müəyyən edilmiş güzəşt müddəti bitənədək təqdim etdikdə:

- əvvəlki rezidentin mövcud investisiya layihəsinə uyğun olaraq mal (iş, xidmət) istehsalına başlamağı və ya davam etdirməyi öhdəsinə götürən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri həmin müddətin qalan hissəsi ərzində verilir;
- yeni investisiya layihəsinə uyğun olaraq digər növ mal (iş, xidmət) istehsalını təşkil etməyi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdən az olmayan sərmayə qoyuluşunu öhdəsinə götürən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri həmin Məcəllə ilə nəzərdə tutulmuş tam müddət ərzində verilir.

VM-in 67-1.2-ci maddəsində isə qeyd edilmişdir ki, sənaye, yaxud texnologiyalar parklarının rezidenti sənaye, yaxud texnologiyalar parklarında yerləşən təsərrüfat və digər vergitutma obyektlərini VM ilə müəyyən edilmiş güzəşt müddəti bitəndən sonra təqdim etdikdə:

- əvvəlki rezidentin mövcud investisiya layihəsinə uyğun olaraq mal (iş, xidmət) istehsalını davam etdirən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri verilmir;
- yeni investisiya layihəsinə uyğun olaraq digər növ mal (iş, xidmət) istehsalını təşkil etməyi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdən az olmayan sərmayə qoyuluşunu öhdəsinə götürən təsərrüfat və digər vergitutma obyektlərini əldə edən yeni rezidentə vergi güzəştləri VM ilə nəzərdə tutulmuş tam müddət ərzində verilir.

# Azərbaycan bank aktivlərinin sürətlə artdığı ölkələr sırasındadır

2014-cü ilin iyun ayının 1-nə olan məlumata görə, Azərbaycanda fəaliyyət göstərən 44 bankdan 34-ü mənfəətlə, 10-u zərərlə işləyib. 2014-cü ilin yanvar-may ayları ərzində mənfəətlə işləyən banklar üzrə bank sisteminin cəmi mənfəəti 237,48 milyon manat, zərərlə işləyən banklar üzrə bank sektorunun zərəri isə 32,57 milyon manat təşkil edib. Nəticədə, bank sisteminin yekun mənfəəti 204,91 milyon manat təşkil edib ki, bu da 2013-cü ilin mayı ilə müqayisədə 49% çoxdur.




Mənfəətlə işləyən banklar üzrə bank sisteminin cəmi mənfəəti ötən ilin may ayı ilə müqayisədə 92,17 milyon manat və ya 63% artaraq 237,4 milyon manat təşkil etmişdir.

Bəzi bankların zərərlə işləməsinin əsas səbəbləri kimi 2014-cü ilin başlanğıcından Mərkəzi Bankın həmin sektorda cəmləşən kommersiya banklarına tətbiq etdiyi istehlak kreditləri verilişinin məhdudlaşdırılması, kreditvermə şərtlərinin sərtləşdirilməsi, o cümlədən avtokreditlərə qoyulan məhdudiyyətlər, buradakı şərtlərin tamamilə dəyişdirilməsi kimi faktorlar göstərilir. Mərkəzi Bank bu qərarlara imza atanda bəyan etmişdi ki, Azərbaycanda zərərlə işləyən bankların sayı artacaq. Yerli və xarici mütəxəssislərin qənaətinə görə, bu cür proseslərin baş verməsi kredit bazarının böyük bir hissəsinin istehlak kreditlərinin təşkil etməsi ilə əlaqədardır.

İstehlak krediti bazarında ciddi fəaliyyət göstərməyən iri banklar sərt rəqabət şəraitində məcburən həmin bazara daxil olaraq gəlir mənbələrini diversifikasiya etməyə cəhd göstərirlər. Bu da əvvəlcədən gözlənildiyi kimi, kiçik bankların fəaliyyətini məhdudlaşdırır və gəlirlərini azaldır.

Qeyd edək ki, ilin əvvəlindən bankların kredit qoyuluşlarının həcmi 1 milyard 135 milyon 700 min manat artaraq 16 milyard 125 milyon 500 min manata çatıb. Bankların məcmu kapitalı isə 3,8 milyard manatdan çoxdur.

Mərkəzi Bank zərərlə işləyən bankların sayının artımasını onların aktivlər üzrə daha konservativ ehtiyatlanma siyasəti tətbiq etmələri ilə əlaqələndirir. Bildirilir ki, bu siyasət bankların maliyyə dayanıqlığına, onların fəaliyyətinə hər hansı risk və ya təhlükə yaratmır. Çünki bank sisteminin maliyyə dayanıqlığı göstəriciləri stabildir, likvidlik mövqeyi yüksəkdir, kapitallaşma səviyyəsi adekvatdır.

Yeri gəlmişkən, 2014-cü ilin iyun ayının 1-nə Azərbaycanda fəaliyyət göstərən bankların aktivləri 22 milyard 140 milyon manat təşkil edib. Bu ilin əvvəlindən bankların aktivləri 1 milyard 754 milyon 900 min manat və ya 8,6% artıb, ötən ilin yanvar-may ayları ərzində isə bu artım 1 milyard 464 milyon 300 min manat və ya 8,8% təşkil etmişdi. Ötən ilin ilk 5 ayı ilə müqayisədə bankların aktivləri 4 milyard 145 milyon 300 min manat və ya 23% artıb.

«The Banker» jurnalı Azərbaycanı bank aktivlərinin ən sürətlə artan ölkələri sırasına daxil edib. Jurnalın hazırladığı «Top 1000 - dünya banklarının reytinqi»ndə aktivləri ən sürətli artan 10 ölkə göstərilib. Azərbaycan reytinqdə banklarının aktivlərinin əvvəlki illə müqayisədə 2013-cü ildə 24,41% artmasına görə 3-cü yeri tutub.

**Rəşad SADIQOV**

# Vergi borcu olanların diqqətinə!

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci hissəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

Vergi Məcəlləsinin 16.1.1-ci maddəsinə görə, qanunla müəyyən edilmiş vergiləri, habelə Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada hesablanmış faizləri, tətbiq olunmuş maliyyə sanksiyalarını və digər məcburi ödənişləri ödəmək vergi ödəyicisinin vəzifələrinə aiddir.

Vergi Məcəlləsinin 78.1-ci maddəsində qeyd olunur ki, vergi ödəyicisinin hesablarında və ya kassasında vəsaitin, habelə onun əmlakının olub-olmamasından asılı olmayaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi məcburidir.

Vergi öhdəliyini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirməyən vergi ödəyicilərinə qarşı vergi orqanları tərəfindən aşağıdakı inzibati tədbirlər həyata keçirilir.

### Ödənilməmiş vergi məbləğinə faizlər hesablanır

Vergi Məcəlləsinin 53.1-ci maddəsinə əsasən, vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə və vergi agentlərinə Vergi Məcəlləsi ilə müəyyən olunmuş faizlər tətbiq edilir.

Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, vergi və ya cari vergi ödəməsi Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

### Bank hesablarına sərəncamlar qoyulur

Vergi Məcəlləsinin 65.1-ci və 65.2.1-ci maddələrinə əsasən, vergi borcları bildirişdə göstərilən müddətdə ödənilmədikdə vergi orqanı qanunvericiliklə müəyyən edilmiş hallarda vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcların vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alınması haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verir.

### Vergi ödəyicisinin əmlakları (daşınar və daşınmaz) siyahıya alına bilər

Vergi Məcəlləsinin 89.1-ci maddəsinə əsasən, vergi ödəyicisi vergi öhdəliyini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər.

Vergi Məcəlləsinin 89.4-cü maddəsinə əsasən, vergi ödəyicisi olan hüquqi şəxsin bütün əmlakı, vergi ödəyicisi olan fiziki şəxsin isə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tələb yönəldilə bilməyən əmlakından başqa, digər əmlakı siyahıya alına bilər.

Cinayət Məcəlləsinin 303.1-ci maddəsinə əsasən, siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın etibar olunmuş şəxs tərəfindən israf edilməsi, özgəninkiləşdirilməsi, gizlədilməsi, həmçinin dəyişdirilməsinə görə həmin şəxslər cinayət məsuliyyəti daşıyırlar.

### Avtonəqliyyat vasitələri siyahıya alına bilər

Vergi Məcəlləsinin 23.1.8-ci maddəsinə əsasən, bu məcəllə ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin əmlakının siyahıya alınması üçün tədbirlər görmək vergi orqanlarının hüquqlarına aid edilmişdir.

Vergi Məcəlləsinin 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, avtonəqliyyat vasitələrinin cərimə meydançasında yerləşdirilməklə üzərinə həbs qoyulması və borc məbləğinin həmin avtonəqliyyat vasitələrinə yönəldilməsi məqsədi ilə müvafiq məhkəmə orqanlarına müraciət edilə bilər.

### Operativ vergi nəzarəti həyata keçirilə bilər

Vergi Məcəlləsinin 50.1-ci və 50.2.3-cü maddələrinə əsasən, vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması barədə vergi orqanlarının tələbləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirilmədikdə, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin və ya əmtəə-material ehtiyatlarının saxlanılması üçün nəzərdə tutulan anbar, ticarət və bu qəbildən olan digər binalarında (ərazilərində) (yaşayış binaları (sahələri) istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) vergi öhdəliklərinin təmini üsulu kimi operativ vergi nəzarəti həyata keçirilə bilər.

Vergi Məcəlləsinin 50.4-cü maddəsinə əsasən, operativ vergi nəzarəti vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilmədən başlanır və vergi ödəyicilərinin faktiki iş vaxtı həyata keçirilir.

### Xronometraj metodu ilə müşahidə aparıla bilər

Vergi Məcəlləsinin 23.1.3-ci və 50-1-ci maddələrinə əsasən, istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məqsədi ilə vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarında (ərazilərində) operativ vergi nəzarəti növü kimi xronometraj metodu ilə müşahidə aparıla bilər.

### Borc məbləği əmr icraatı qaydasında alına bilər

Vergi Məcəlləsinin 23.1.16-cı maddəsinə əsasən, borc məbləğinin əmr icraatı qaydasında tutulması məqsədi ilə müvafiq məhkəmə orqanlarına müraciətlər edilə bilər.

Mülki-Prosessual Məcəllənin 276.1-ci və 276.2-ci maddələrinə əsasən, tələb fiziki şəxslərdən vergilər və dövlət məcburi sığortası üzrə qalığın alınması haqqında verilmişdirsə, kreditorun tələbi aşkardırsa və ya həmin tələb borclunun mübahisə edilməyən vəzifəsinə əsaslanırsa, bu hallarda məhkəmə əmri verilə bilər.

Mülki-Prosessual Məcəllənin 284.1-ci maddəsinə əsasən, məhkəmə əmri qətnamə qüvvəsinə malikdir. Məhkəmə əmrindən şikayət verilə bilməz.

### Borclu fiziki şəxslər inzibati qaydada həbs oluna bilər

Vergi Məcəlləsinin 23.1.16-cı maddəsinə əsasən, borclu fiziki şəxslərə inzibati həbs tətbiq olunması üçün məhəkəmələrə təqdimat verilməsi məqsədi ilə müvafiq icra məmurlarına müraciətlər edilə bilər.

İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsinə əsasən, məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzürsüz səbəbdən icra edilməməsinə görə fiziki şəxslər işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

### Borclu vergi ödəyicisi cinayət məsuliyyətinə cəlb edilə bilər

Vergi Məcəlləsinin 23.1.12-ci maddəsinə və «Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə»nin 11.16-cı bəndinə əsasən, cinayət tərkibi yaradan vergi borcu materialları ibtidai istintaq qaydasında araşdırılması məqsədi ilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilə bilər.

Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən, xeyli miqdarda (iki min manatdan əlli min manatadək olan məbləğ) və ya külli miqdarda (əlli min manatdan yuxarı olan məbləğ) vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayət əməli hesab edilir.

### Borc məbləği hüquqi şəxsdə nizamnamə kapitalındakı paya yönəldilə bilər

Vergi Məcəlləsinin 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, borclu fiziki şəxs hər hansı hüquqi şəxsdə təsisçi olduqda, borc məbləğinin onun həmin hüquqi şəxsdə nizamnamə kapitalındakı payına uyğun hissəsinə yönəldilməsi məqsədi ilə müvafiq məhkəmə orqanlarına müraciətlər edilə bilər.

Mülki Məcəllənin 80.1-ci maddəsinə əsasən, iştirakçının ortaqlıqda iştirakla bağlı olmayan borcları (şəxsi borcları) üzrə tutmanın iştirakçının tam ortaqlığın əmlakındakı payına yönəldilməsinə yalnız onun başqa əmlakının borcları ödəməyə kifayət etmədiyi halda yol verilir. Həmin iştirakçının kreditorları tam ortaqlıqdan tutmanın borclunun şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinə yönəldilməsi məqsədilə həmin hissəni ayırmağı tələb edə bilərlər.

Mülki Məcəllənin 94.1-ci maddəsinə əsasən, iştirakçının şəxsi borcları üzrə tutmanın onun məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı payına yönəldilməsinə yalnız onun başqa əmlakının borclarını ödəməyə kifayət etmədiyi halda yol verilir. Həmin iştirakçının kreditorları məhdud məsuliyyətli cəmiyyətdən tutmanın yönəldilməsi məqsədilə cəmiyyətin əmlakının borclunun nizamnamə kapitalındakı payına uyğun hissəsinin dəyərini ödəməyi və ya bu əmlak hissəsini ayırmağı tələb edə bilərlər.

Mülki Məcəllənin 112.5-ci maddəsinə əsasən, kooperativ üzvünün şəxsi borclarına görə tutmanın kooperativ üzvünün payına yönəldilməsinə yalnız həmin borcları ödəmək üçün onun başqa əmlakı kifayət etmədikdə, kooperativin nizamnaməsi ilə nəzərdə tutulan qaydada yol verilir.

### Borc məbləği əməkhaqqına yönəldilə bilər

Vergi Məcəlləsinin 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, borclu fiziki şəxs Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan əldə edilmiş məlumata əsasən hər hansı bir yerdə muzdlu işçi kimi çalışdıqda, borc məbləğinin onun muzdlu işlə əlaqədar gəlirlərinə yönəldilməsi məqsədi ilə müvafiq məhkəmə orqanlarına müraciətlər edilə bilər.

### Borc məbləği məhkəmə qərarı ilə məcburi qaydada alına bilər

Vergi Məcəlləsinin 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, borc məbləğinin vergi ödəyicisindən məcburi qaydada alınması məqsədi ilə müvafiq məhkəmə orqanlarına müraciətlər edilə bilər.

### Borc məbləği tələbin icraya yönəldilməsi qaydasında alına bilər

Vergi Məcəlləsinin 23.1.16-cı maddəsinə əsasən, borc məbləğinin tələbin icraya yönəldiməsi qaydasında tutulması məqsədi ilə müvafiq icra məmurlarına müraciətlər edilə bilər.

«İnzibati icraat haqqında» Qanunun 82.1-ci və 82.2-ci maddələrinə əsasən, pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktların məcburi qaydada icrası «İcra haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən məhkəmə icraçıları tərəfindən icra edilir. İnzibati aktı qəbul etmiş inzibati orqan tələbin icraya yönəldilməsi haqqında qərar qəbul edir.

Bu halda tələbin icraya yönəldilməsi üçün məhkəmə qərarının qəbul edilməsi tələb olunmur.

### Borclu fiziki şəxslərin ölkədən getmək hüququ məhdudlaşdırıla bilər

Vergi Məcəlləsinin 23.1.16-cı maddəsinə əsasən, borclu fiziki şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması məqsədi ilə müvafiq icra məmurlarına müraciətlər edilə bilər.

«İcra haqqında» Qanunun 84-1.1-ci maddəsinə əsasən, məhkəmə qərarları əsasında verilmiş icra sənədləri könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzürsüz səbəbdən icra edilmədikdə, borclunun ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırıla bilər.

Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə icra məmuru tərəfindən dərhal borclunun özünə, tələbkara və müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

# Əməkdaşlıq sahibkarlığın inkişafına yönəldilir

*Beynəlxalq Maliyyə Korporasiyası (BMK) Azərbaycanda özəl sektorun inkişafına dəstək vermək məqsədilə yeni strategiya hazırlayacaq*

BMK-nın nümayəndəsi İrina Niderbergerin sözlərinə görə, strategiyanın digər əsas hədəfləri sahibkarlıq subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi, müəssisələr arasında sorğular yolu ilə biznesin qeydiyyatı sahəsində islahatların qiymətləndirilməsi, iqtisadi diversifikasiya və özəl sektorun inkişafı sahələrində dəstək vermək olacaq. Əməkdaşlıq biznesin, idarəçiliyin təkmilləşdirilməsi və bu sahədə yerli tərəfdaşlarla qarşılıqlı münasibətlər, müxtəlif biznes və ictimai təşkilatlar vasitəsilə hüquqi yardım göstərilməsi, yeni texnologiyaların tətbiqi sahəsində maarifləndirmə də əhatə edəcək.

Azərbaycanla əməkdaşlıq üçün əlverişli iqtisadi mühitin olduğunu vurğulayan BMK rəsmisi indiyədək tərəflər arasında həyata keçirilmiş strategiyanın uğurlu nəticələrlə yadda qaldığını diqqətə çatdırıb. Qeyd olunub ki, bu müddət ərzində Azərbaycanda biznes mühitinin inkişafı sahəsində əhəmiyyətli dəyişikliklər baş verib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, qanunvericilik təkmilləşdirilib. Xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı xeyli azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarının qarşısını alan və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. İki ildir ki, sahibkarlar üçün verilən lisenziyalar, mənşə və keyfiyyət sertifikatları elektron qaydada həyata keçirilir. Sahibkarlığın onlayn qeydiyyatı, yoxlamaların vahid reyestrinin təşkili, icazələrin elektron rejimdə verilməsi, həmçinin rüsum və ödənişlərin elektronlaşdırılması və digər yeni texnologiyaların tətbiqi müsbət nəticələr verib, davamlı xarakter alan bu tədbirlər vergi ödəyicilərinin fəaliyyətinə mühüm təsir göstərib. İ.Niderbergin rəyinə görə, biznes mühitinin yaxşılaşdırılmasına xidmət edən islahatlar sahibkarların azad və şəffaf fəaliyyəti üçün əlverişli zəmin yaradır, vergi ödəyicilərinin sayının artmasına səbəb olur. Bu tədbirlər xüsusilə də qeyri-neft sektorunda sahibkarlığın inkişafına təkan verərək vergi daxilolmalarının həcminin artmasına xidmət edir.

BMK-nın nümayəndəsi bildirib ki, Azərbaycanda rəqabətqabiliyyətli bazarların inkişaf etdirilməsi istiqamətində dövlət və özəl sektorun iştirakı ilə birgə layihənin həyata keçirilməsi planlaşdırılır. Layihə əsas etibarilə özəl müəssisələrin inkişaf etdirilməsinə yardım mexanizminin təkmilləşdirilməsi, xüsusilə də kiçik və orta sahibkarlıq sektoruna diqqətin gücləndirilməsi üçün maliyyə mənbələrindən istifadə imkanlarının artırılmasını nəzərdə tutur. Təşkilat layihə çərçivəsində birbaşa özəl sektora investisiyaların maliyyələşdirilməsini, kapitalın beynəlxalq maliyyə bazarlarına istiqamətləndirilməsini, şirkətlərə və hökumətlərə məsləhət xidmətlərinin göstərilməsini həyata keçirəcək. Korporasiya ölkəmizdə kənd təsərrüfatı və informasiya-kommunikasiya texnologiyaları sahələrində əməkdaşlıqda da maraqlıdır. Bununla yanaşı, tərəfdaş kimi Azərbaycanın maliyyə institutlarının bu prosesdə rolunu artırmaq üçün institusional islahatların davam etdirilməsi təklif olunur.

Vergilər Nazirliyi ilə əməkdaşlığa önəm verən BMK sahibkarlığın qeydiyyatı ilə bağlı təkmilləşmələrin davam etdirilməsi, biznesin vergiyə cəlb olunması, şəffaflığın təmin edilməsi, transfert qiymətqoyma və digər sahələrdə birgə layihələr həyata keçirməyi məqsədəuyğun sayır.

**Elbrus CƏFƏRLİ**

# Sahibkarlara güzəştli kreditlər verilməsi davam edir

*İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsini davam etdirir.*

Fond Xəzər rayonunun Mərdəkan qəsəbəsində sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum keçirib. 80-ə yaxın sahibkarın iştirak etdiyi forum çərçivəsində Xəzər rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan ixtisaslaşdırılmış «yaşıl market»in, müasir çörək zavodunun, ət kəsimi müəssisəsinin, kiçik və orta həcmli istixana, zeytunçuluq təsərrüfatlarının yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100%-dək dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi vurğulanıb, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb.




*2014-cü ilin ötən dövrü ərzində ölkə üzrə 2460 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 122 milyon manat güzəştli kredit verilib*

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev bildirib ki, 2014-cü ilin ötən dövrü ərzində ölkə üzrə 2460 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 122 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 5600-dən çox yeni iş yerinin yaradılmasına imkan verir. Ümumilikdə, indiyədək Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində paytaxt qəsəbələrində sahibkarlıq subyektlərinin 818 investisiya layihəsinin maliyyələşdirilməsinə 175,5 milyon manat güzəştli kredit verilib. Bu güzəştli kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 5900-a yaxın yeni iş yerinin yaradılmasına imkan verir.

Mərdəkan qəsəbəsində keçirilmiş sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum çərçivəsində müvəkkil kredit təşkilatları vasitəsilə 29 sahibkarlıq subyektinə 753,5 min manat kredit ayrılıb. Verilmiş kreditlər, əsasən, heyvandarlıq, quşçuluq, tərəvəzçilik, un məmulatları, boya, lak istehsalı və s. sahələrə yönəldiləcək.

# Dinamik inkişafı təmin edən vergi strategiyasının müəllifi

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi Partnyorluğu Sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.***

***Müsabiqədə yüksək yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.***

**Sosial yönümlü vergi siyasəti**

Azərbaycanın 23 illik müstəqillik yolunda nail olduğu böyük iqtisadi nailiyyətlərin milli inkişaf modeli ilə bağlılığı aksiom kimi qəbul edilən bir həqiqətdir. Ümummilli lider Heydər Əliyev azad bazar iqtisadiyyatına optimal keçid modelini müdriklik lə irəli sürmüş, onun mərhələlərlə həyata keçirilməsini təmin etmişdir.

Həmin dövrdə həyata keçirilən islahatların səmərəliliyinə nail olmaq baxımından ölkənin vergi sistemində köklü dəyişikliklərin aparılması, vergi sisteminin müasir tələblər əsasında yenidən formalaşdırılması obyektiv sosial zərurət kimi meydana çıxmışdı. Ulu öndər bu reallıqdan çıxış edərək deyirdi: «Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Buna görə də vergi orqanlarının işinə daha çox diqqət yetirməliyik».

Heydər Əliyevin diqqət və qayğısı nəticəsində ölkədə müasir tələblərə cavab verən vergi sisteminin yaradılması mümkün olmuş, müasir iqtisadi münasibətlər şəraitində prinsipial cəhətdən yeni vergi siyasətinin həyata keçirilməsinə başlanılmışdır. Vergi sisteminin təkmilləşdirilməsi, onun vahid normativ-hüquqi bazasının yaradılması, vergi dərəcələrinin aşağı salınması hesabına vergitutma bazasının genişləndirilməsi, kiçik və orta sahibkarlıq üçün əlverişli vergi mühitinin yaradılması, həmçinin vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması tədbirləri xüsusi diqqət mərkəzində olmuşdur.

Vergi sisteminin baza iqtisadiyyatı şəraitinə uyğunlaşdırılması, milli inkişafın xüsusiyyətləri və beynəlxalq təcrübə əsasında köklü surətdə yenidən qurulması üçün təkmil hüquqi bazanın yaradılması da əsas şərtlərdən biri idi. İlk öncə vergi münasibətlərini tənzimləyən qanunlar, o cümlədən «Mədən vergisi haqqında» (1995-ci il), «Əmlak vergisi haqqında» (1995-ci il), «Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında» (1996-cı il) qanunların qəbul edilməsi, qüvvədə olan «Əlavə dəyər vergisi haqqında», «Fiziki şəxslərin gəlirlərindən vergi haqqında» və s. qanunlarda əlavə və dəyişikliklər edilməsi qeyd olunan istiqamətdə mühüm yeniliklərə səbəb oldu.

Vergi sisteminin təkmilləşdirilməsi məqsədilə Heydər Əliyevin bilavasitə tapşırığı əsasında 1997-ci ildən başlayaraq vergi münasibətlərinin tənzimlənməsi sahəsində vahid qanunvericilik bazasının yaradılması məqsədilə Vergi Məcəlləsinin layihəsinin hazırlanmasına başlanıldı. Bu zaman ulu öndər milli xüsusiyyətləri və sosial vəziyyəti nəzərə almağı mühüm məsələ kimi qarşıya qoymuşdu. Məcəllənin hazırlanması zamanı qanunvericiliyin uzun müddət sabit qalması, güzəşt və imtiyaz sisteminin ünvanlı olması kimi məsələlər nəzərə alınmışdı.

Nəhayət, 1 yanvar 2001-ci ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsi qəbul edildi. Ölkənin həyatında tarixi hadisə olan bu fakt vergi sisteminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addım oldu. Sənəddə vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri təsbit olunmuş, ölkəmizdə tətbiq edilən vergilərin dəqiq siyahısı müəyyən edilmiş, vergilərin ödənilməsi üzrə öhdəliklərin yaranmasının əsasları və icra olunmasının qaydaları əksini tapmışdır. Məcəllədə əvvəllər tətbiq olunan 13 vergi növündən 9-u təsbit olunmuş, əksər üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı azaldılmışdı.

**Struktur islahatları**

Mükəmməl hüquqi bazanın praktikada uğurlu tətbiqi üçün Heydər Əliyev tərəfindən atılan növbəti vacib addım 2000-ci ildə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyinin yaradılması haqqında qərar verməsi oldu. Əvvəllər Maliyyə Nazirliyinin tərkibində formalaşdırılmış vergi xidmətinin özünün ayrıca bir nazirliyə çevrilməsi günün vacib tələblərindən idi. Çünki bu, dövlətin vergi siyasətinin təkmil formada həyata keçirilməsinə imkan verməklə yanaşı, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasının təmin edilməsi baxımından olduqca aktual idi. Digər tərəfdən, bununla iqtisadi tənzimləmədə və fiskal siyasətin həyata keçirilməsində vergilərin aparıcı rolu konkret formada təsbit edildi.

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli fərmanı ilə Vergilər Nazirliyinə təhqiqat və istintaq aparılması səlahiyyətləri verildi və onun icrası ilə əlaqədar Hüquq-mühafizə orqanları ilə əlaqələndirmə Baş İdarəsinin bazasında Vergi Cinayətlərinin İbtidai Araşdırılması İdarəsi, daha sonra isə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yaradıldı.

Digər vacib addım 2003-cü il 1 yanvar tarixdən qüvvəyə minmiş «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında» Qanun oldu. Burada vergi orqanları tərəfindən vergi ödəyicilərinin bank hesabları üzrə əməliyyatlarının məhkəməsiz dayandırılması barədə müddəanın ləğv edilməsi, bank hesablarından vergilərin dövlət büdcəsinə alınması prosedurunun təkmilləşdirilməsi öz əksini tapdı. Bu, vergi orqanlarına gəlmədən hesabatların təqdim edilməsi, sadələşdirilmiş verginin tətbiqi bazasının genişləndirilməsi ilə nəticələndi.

**Vergi ödəyicilərinə xidmətlər yeni meyarlar əsasında qurulur**

2003-cü ildən ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirən dövlət başçısı İlham Əliyev ölkənin davamlı tərəqqisinin təmini baxımından vergi orqanlarında islahatların sistemli şəkildə həyata keçirilməsini vacib hesab etmişdir. Vergi sistemində 2003-2013-cü illərdə aparılan islahatların əsas hədəfləri xidmətin texnoloji baxımdan inkişafına nail olmaq, vergi prosedurlarını sadələşdirməklə biznesin inkişafına dəstək vermək, vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsini yüksəltməkdir.

Son 10 ildə vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi Vergilər Nazirliyinin fəaliyyətində mühüm yer tutur. Nazirlik 2002-ci ildə Azərbaycan, rus və ingilis dillərində rəsmi internet səhifəsini (www.taxes.gov.az) yaratmış ilk dövlət qurumlarındandır. Digər mühüm yenilik 2003-cü ildə «195» Telefon-məlumat xidmətinin yaradılmasıdır. 2009-cu ilin sentyabr ayından İqtisadi İnkişaf Nazirliyinin (indi İqtisadiyyat və Sənaye Nazirliyi) də bu xidmətə qoşulması onun səmərəliliyini artırmışdır. Yeri gəlmişkən, Nazirlər Kabinetinin 2013-cü il 28 oktyabr tarixli qərarına əsasən, sahibkarların, ümumən vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə Vergilər Nazirliyinin Çağrı Mərkəzinin bazası əsasında bütün dövlət qurumlarını əhatə edəcək «Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi»nin yaradılması nəzərdə tutulur.

Bundan əlavə, 2007-ci ildən Vergilər Nazirliyi tərəfindən əsasən regionlarda, xüsusilə də vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət üçün 40 mərkəz istifadəyə verilmiş, onlar müasir kompüter və avadanlıqlar, sürətli kommunikasiya sistemi ilə təchiz edilmişdir.

**Ən çox «e-xidmət»lər göstərən nazirlik**

Vergilər Nazirliyi həm də innovativ yeniliklərə meyilli olan, müasir menecment prinsiplərindən çıxış edən dövlət qurumu kimi tanınır. Bu baxımdan, nazirliyin hazırda ən çox - 54 elektron xidmət göstərən dövlət qurumu olduğunu xüsusi vurğulamaq lazım gəlir. 2005-ci il 12 sentyabr tarixli «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı», habelə 2011-ci il 23 may tarixli «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərman əsasında reallaşdırılan elektron xidmətlər bir tərəfdən nazirliyin fəaliyyətinin çevikliyini, şəffaflığını, hesabatlılığını təmin etmiş, digər tərəfdən vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyəti, səmərəliliyi əhəmiyyətli dərəcədə artmışdır. İlk uğurlu layihələrdən biri də 2006-cı ildən «Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi»nin (AVİS) tətbiqidir. Layihənin reallaşdırılması nəticəsində Azərbaycanın vergi xidməti ən müasir informasiya texnologiyasının tətbiqinə görə təkcə MDB ölkələri arasında deyil, həm də Şərqi Avropada seçilir.

2007-ci ildən vergi bəyannamələrinin elektron formada təqdim edilməsi sisteminə keçid «e-xidmətlər» sahəsində mühüm yeniliklərdən olmuşdur. Bu məqsədlə İnternet Vergi İdarəsi (www.e-taxes.gov.az) yaradılmış, beləliklə, vergi ödəyiciləri bəyannamələrini vergi orqanlarına gəlmədən - elektron formada təqdim etmək imkanı əldə etmişlər. Bu layihə bəyannamələrin elektron formada qəbulunu, hər bir vergi ödəyicisinin sərbəst şəkildə öz ofisindən, evindən internetlə Vergilər Nazirliyinin saytına daxil olaraq məlumatlarına baxa bilməsi imkanlarını da yaratmışdır. 2013-cü ildə bütün bəyannamələrin 95%-ə qədəri elektron formada göndərilmişdir.

*Vergi inzibatçılığı xərclərinin vergi daxilolmalarına nisbəti göstəricisinə (0,35%) görə Azərbaycanın vergi xidməti Avropa məkanında öncül yer tutur*

2008-ci ildə sahibkarlıq subyektlərinin «bir pəncərə» prinsipi üzrə qeydiyyatı sisteminin tətbiqi qeydiyyat prosedurlarının sadələşdirilməsi ilə yanaşı, sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının dinamikasına müsbət təsir etmişdir. Yeri gəlmişkən, 2011-ci ildən fərdi sahibkarların vergi orqanlarına gəlmədən real vaxt (onlayn) rejimində qeydiyyat sistemi tətbiq olunmuş, 2012-ci ildən yerli hüquqi şəxslərin dövlət qeydiyyatının elektron qaydada aparılmasına başlanılmışdır. E-qeydiyyatın tətbiqi ilə biznesə başlamaq üçün tələb olunan prosedurlar 6-dan 3-ə, sənədlərin sayı isə 7-dən 2-yə enmişdir.

**Kreativ yeniliklərə doğru...**

2011-2013-cü illərdə Niderland Krallığının Vergi Administrasiyası ilə birlikdə «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» adlı tvinninq layihəsi («e-audit») həyata keçirilmişdir. Vergilər nazirinin müşaviri A.Əsədovun sözlərinə görə, başqa ölkələrdə bu sistemin qurulması üçün 10 ilədək vaxt lazım olduğu halda, Azərbaycan qısa zamanda bu sahədə mühüm uğurlar əldə etmişdir: «E-audit»in tətbiqi nəticəsində vergi orqanları məlumatları müəssisələrdən elektron formada alır və vergidənyayınma risklərinin təhlilini avtomatlaşdırılmış qaydada həyata keçirilir. Nəticədə bir yoxlamaya sərf olunan vaxt və insan resursları təxminən 1,5 dəfə azalmış, vergidənyayınma risklərinin təhlilinin avtomatlaşdırılmış qaydada aparılması vergi daxilolmalarının həcmini 40%-dək artırmışdır».

2013-cü ildə elektron və mobil imzaların tətbiqi məqsədilə Vergilər Nazirliyinin Sertifikat Xidməti Mərkəzi fəaliyyətə başlamışdır. Vergi inzibatçılığının düzgün qurulması, vergi ödəyiciləri ilə aparılan ardıcıl, səmərəli iş nəticəsində büdcə daxilolmalarının proqnozlaşdırılması və icrası yüksək səviyyədə həyata keçirilir. Vergi inzibatçılığı xərclərinin vergi daxilolmalarına nisbəti göstəricisinə (0,35%) görə Azərbaycanın vergi xidməti Avropa məkanında öncül yer tutur.

Nazirliyin əldə etdiyi uğurlar həm də peşəkar komandanın mövcudluğu ilə şərtlənir. Kadrların bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi istiqamətində işlər Tədris Mərkəzində həyata keçirilir. Tədris Mərkəzi dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təkmilləşdirilməsini və ixtisaslarının artırılmasını, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasını təmin etməkdədir.

Bütün bunlar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi vergi sisteminin ildən-ilə modernləşdiyini, iqtisadiyyatın dinamik tərəqqisinə böyük töhfələr verdiyini real şəkildə nümayiş etdirir.

**Akif CABBAROV,**
***İctimai Televiziya və Radio Yayımları Şirkətinin əməkdaşı***

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ** *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Hörmətli oxucular, qəzetin əvvəlki saylarında dərc olunan izahlarda qeyd edildi ki, mühasib hazırladığı sınaq balansı əsasında ardıcıllıqla mənfəət və zərər haqqında hesabatı, kapitalda dəyişikliklər haqqında hesabatı, mühasibat balansını və pul vəsaitlərinin hərəkəti haqqında hesabatı tərtib edir. Sonuncu tərtib olunacaq hesabat «maliyyə hesabatlarına qeydlər» adlanır. Bu hesabatı qısaca olaraq «qeydlər» də adlandırırlar. Əslində, bu qeydlər açıqlamalardan ibarətdir.

İlk hazırlanan dörd hesabat formasında əks etdirilən göstəricilər geniş ictimaiyyət (mühasibat uçotu istifadəçiləri) üçün tam anlaşıqlı olmaya bilər və ya dürüst rəy formalaşdırmağa imkan verməyə bilər. Məsələn, mühasibat balansı hesabatında aktivlərdə «torpaq, tikili və avadanlıqlar» maddəsində əks etdirilən məbləğ müəssisənin uzunmüddətli maddi aktivlərinin (investisiya məqsədli daşınmaz əmlak, bioloji aktivlər və təbii sərvətlər istisna olmaqla) ümumi göstəricisidir. Lakin istifadəçilər bu göstəricinin açıqlanmasına maraqlıdırlar. Bu göstəricinin torpaq sahəsi, binalar (tikililər), tikilməkdə olan binalar, qurğular, avadanlıqlar, nəqliyyat vasitələri və digər uzunmüddətli maddi aktivlər alt başlıqlarında bölüşdürülərək, həmçinin onların ilkin, amortizasiya və qalıq dəyəri haqqında məlumatlarla təqdim olunması həm şəffaflıq, həm düzgün qərarlar verilməsi, həm də yeni investisiyaların planlaşdırılması və cəlb edilməsi baxımından daha məqsədəmüvafiqdir. Qeydlərin təqdim olunmasının mahiyyətində, həmçinin, mühasibat terminologiyasının başa düşülməsində yaranan çətinliyin aradan qaldırılması durur. Qeydlərin məqsədi dörd maliyyə hesabatındakı göstəricilərin səhmdar ordusuna və kənar istifadəçilərə onların başa düşə biləcəyi və ən əhəmiyyətli formada təqdim olunmasını təmin etməkdir.

Konkret olaraq maliyyə hesabatlarına qeydlərin xüsusi müəyyənləşdirilmiş və ya təsdiqlənmiş forması yoxdur. Mühasib bilməlidir ki, müəssisənin maliyyə hesabatlarına edilən qeydlər nələri təmin etməlidir və hansı qaydada təqdim olunmalıdır. Bu barədə, məsələn, «Maliyyə Hesabatlarının Təqdimatı Üzrə» Kommersiya Təşkilatları Üçün 1 №-li Milli Mühasibat Uçotu Standartının 77-80-ci maddələrində maliyyə hesabatlarına daxil edilməli olan qeydlər açıqlanmışdır. Ümumiyyətlə, həm Beynəlxalq, həm də Milli Mühasibat Uçotu Standartlarının hər birinin mətninin sonunda aidiyyəti üzrə müvafiq məlumatların və informasiyaların təqdim edilməsi və açıqlanması haqqında tələblər göstərilmişdir. Mühasiblər bu tələblərə maksimum əməl etməlidirlər.

Bizim misal üzrə «maliyyə hesabatlarına qeydlər» sadə formada aşağıdakı kimi tərtib oluna bilər (bizim misal sadə xarakter daşıdığına görə, burada yalnız dörd maliyyə hesabatında əks etdirilən göstəricilərin sadə açıqlanması təqdim olunacaqdır).

**Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar haqqında**

**Qeyd 1. Torpaq, tikili və avadanlıqlar**

| Göstəricilər | Avadanlıq | Cəmi |
|---|---|---|
| 01 yanvar 2014-cü il tarixinə ilkin dəyər | 20000 | 20000 |
| Yığılmış amortizasiya | 0 | 0 |
| **01 yanvar 2014-ci il tarixinə balans dəyəri** | **20000** | **20000** |
| Daxilolmalar | 75000 | 75000 |
| Xaricolmalar | 0 | 0 |
| Amortizasiya ayırmaları | 22500 | 22500 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | 0 | 0 |
| 31 yanvar 2014-cü il tarixinə ilkin dəyər | 95000 | 95000 |
| Yığılmış amortizasiya | 22500 | 22500 |
| **31 yanvar 2014-ci il tarixinə balans dəyəri** | **72500** | **72500** |

**Qeyd 2. Ehtiyatlar**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Mallar | 145650 | 34000 |
| **Cəmi** | **145650** | **34000** |

**Qeyd 3. Qısamüddətli debitor borcları**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | 103400 | 40000 |
| **Cəmi** | **103400** | **40000** |

**Qeyd 4. Pul vəsaitləri və onların ekvivalentləri**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Kassada saxlanılan nağd pul | 49850 | 27000 |
| Milli valyutada cari bank hesabında pul | 38930 | 0 |
| **Cəmi** | **88780** | **27000** |

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | **15** | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».
21 iyul - «(1-1)», «3», «4», «8», «9», 10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

qara siyahı

# Borclu vergi ödəyiciləri

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16.1.1-ci maddəsində isə qeyd olunub ki, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsidir. Məcəllənin 77-ci maddəsinin müddəalarına görə, vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir və vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Vergilər Nazirliyinin apardığı təhlillər göstərir ki, borclu vergi ödəyicilərinin çoxu müxtəlif səbəblərdən yaranmış vergi borclarını mümkün qədər qısa müddət ərzində ödəməyə çalışır və əsasən, buna nail olur. Lakin vergi borclarını ödəmək üçün real imkanları olan bəzi vergi ödəyiciləri qanunvericiliyin tələblərini pozur, hesablanmış vergiləri nəzərdə tutulmuş müddətlərdə dövlət büdcəsinə ödəmirlər.

Bununla əlaqədar olaraq, ayrı-ayrı vergi orqanları üzrə borclarını 2 aydan artıq müddətdə ödəməyən, lakin buna real imkanı olan vergi ödəyicilərinin siyahısının mütəmadi qaydada «Vergilər» qəzetində dərc edilməsi, habelə həmin siyahıların vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzlərində yerləşdirilməsi nəzərdə tutulub. Qəzetimizin bu sayında 2 saylı Ərazi Vergilər Departamentində qeydiyyatdan keçən və vergi borclarını ödəmək iqtidarında olan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur.

Adının «Qara siyahı»ya düşməsini istəməyən vergi ödəyiciləri vergi borclarının qısa müddət ərzində dövlət büdcəsinə ödənilməsini təmin etməlidirlər.

| № | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | 08.07.2014 tarixə borc (manatla) |
|---|---|---|---|
| 1 | "KRAL-A.İ." MTK | Abşeron rayonu | 118 475,7 |
| 2 | "Q.Y.Ş." şəxsi istehsalat kommersiya firması | Sumqayıt şəhəri | 42 895,2 |
| 3 | QULİYEV NİZAMİ QƏHRƏMAN OĞLU | Sumqayıt şəhəri | 29 905,5 |
| 4 | MƏMMƏDOV ETİBAR ƏLİ OĞLU | Abşeron rayonu | 13 215,3 |
| 5 | "SERVİS-N" MMC | Sumqayıt şəhəri | 9 809,8 |
| 6 | "SMART KOMPLEKS" MMC | Abşeron rayonu | 8 794,4 |
| 7 | "PELİT" MMC | Abşeron rayonu | 6 873,8 |
| 8 | MUSTAFAYEV SEYMUR RƏHİM OĞLU | Sumqayıt şəhəri | 5 756,6 |
| 9 | KƏRİMOV NAZİM ƏLİ OĞLU | Sumqayıt şəhəri | 4 773,2 |
| 10 | BAĞIROV CAVANŞİR MAHİR OĞLU | Sumqayıt şəhəri | 3 784,3 |

aktual

# Sahibkarların maraqları qorunur

**«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə əsasən, yoxlayıcı orqan tərəfindən hesabat dövründə sahibkarlar üçün daha aktual suallar önə çəkilməklə, izah edilməsi tələb olunan normativ hüquqi aktların müddəaları ilə bağlı məsləhətlər verilir və görülmüş işlər barədə illik hesabatlar hazırlanır. Vergi ödəyiciləri üçün daha aktual olan istiqamətlər barədə məlumatlandırma işləri aparmaq məqsədilə məlumatlandırma formalarını təqdim edirik.**

## *Vergi Məcəlləsinin 71.4-cü maddəsinə əsasən vergi ödəyiciləri tərəfindən mühasibat uçotu sənədlərinin qanunla müəyyən edilmiş müddətdə saxlanılması*

Vergi Məcəlləsinin müddəalarına əsasən, vergi nəzarətinin təmin olunması məqsədi ilə keçirilən səyyar vergi yoxlamalarında vergi əməkdaşları yoxlamanı vergi ödəyicilərinin vergi orqanlarına təqdim etdikləri uçot sənədlərinə, habelə onların apardıqları maliyyə-təsərrüfat əməliyyatlarını rəsmiləşdirən sənədlərə, o cümlədən elektron daşıyıcılarındakı məlumatlara əsasən aparmalıdırlar.

Bu baxımdan da səyyar vergi yoxlamalarının düzgün keçirilməsi məqsədi ilə vergi ödəyiciləri mühasibat uçotu sənədlərini, o cümlədən elektron və (və ya) kağız formatda məlumatları tam oxunaqlı şəkildə 5 ildən az olmamaqla saxlamalıdırlar.

Bu tələbə riayət etməyən vergi ödəyicilərinə qarşı 100 manat məbləğində maliyyə sanksiyasının tətbiq olunması ilə yanaşı, vergi orqanının ödənilməli olan vergi məbləğlərini Vergi Məcəlləsinin 67-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada əlaqəli məlumatlardan istifadə etməklə hesablamaq hüququ vardır.

*Rubrikanı Vergi ödəyicilərinə xidmət Baş İdarəsi aparır*

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Sahibkar Müşfiq Sarıyevin rəhbərlik etdiyi «Farid İnşaat Kot» MMC müxtəlif dövlət təşkilatları, özəl şirkətlərlə müqavilə imzalayaraq tikinti-məişət, elektrik avadanlıqlarının alqı-satqısını həyata keçirib, onlara müxtəlif xidmətlər göstərib. İş və xidmətlərin göstərilməsinə görə, şifahi razılıq əsasında bir neçə muzdlu işçi tutulub, onlara görülən işin həcminə uyğun maaş verilib. MMC-nin mühasibi olmayıb, sahibkar mühasibatlıq işlərini yaxşı bacaran yaxın dostlarından birini qeyri-rəsmi şəkildə müəssisəyə cəlb edib. Öz xidmətlərinə yaxşı müştəri toplayan M.Sarıyev xeyli müddət vergidən və digər sosial ödənişlərdən yayınmaqla biznesini davam etdirib. Təqdim etdiyi vergi bəyannamələri şübhə doğurduğundan vergi orqanları müəssisənin fəaliyyətini yoxlamaq qərarına gəlib.

Vergi əməkdaşlarının müəssisənin fəaliyyətindəki nöqsanları araşdırmaq məqsədilə hərtərəfli və obyektiv qaydada təşkil etdiyi növbədənkənar səyyar vergi yoxlaması zamanı «Farid İnşaat Kot» MMC-də bir neçə fakt üzrə vergi qanunsuzluqlarının baş verməsi aşkar olunub. Səyyar vergi yoxlaması ilə bağlı materiallar Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim edilib. Departamentin apardığı istintaq zamanı M.Sarıyevin təqdim etdiyi mənfəət vergisi bəyannaməsində gəlir və xərclərini gizlədərək külli miqdarda mənfəət vergisini dövlət büdcəsinə ödəməkdən yayındırdığı müəyyənləşib. Sahibkar 858546,66 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınıb. İstintaq orqanlarının təqdim etdiyi sənədlərə əsasən, onun barəsində həbs qətimkan tədbiri seçilib və Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi üzrə cinayət işi başlanılıb.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilən M.Sarıyev ona elan edilmiş ittihamla özünü tam təqsirli bilərək müəssisədəki bütün qanunsuz əməliyyatlara görə məsuliyyət daşıdığını, başqa şəxslərin bu proseslərdə iştirakının olmadığını bildirib. M. Sarıyevin cinayət törətməsi onun etirafedici ifadəsindən başqa, şahid ifadələri, ekspert rəyləri və digər istintaq materialları ilə də tam sübuta yetirilib. «Farid İnşaat Kot» MMC-də keçirilmiş səyyar vergi yoxlaması aktı, ona əlavə olunmuş materiallar, istintaq zamanı götürülmüş bank sənədləri maddi sübut kimi tanınaraq cinayət işinin materiallarına əlavə edilib.

Beləliklə, M. Sarıyevin qanunsuz əməlləri ona baha başa gəlib: Goranboy Rayon Məhkəməsinin hökmü ilə 5 il 5 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.

**ELBRUS**



beynəlxalq panoram

# Moldovada neft məhsulları üzrə aksizlər artacaq

*Ölkənin Maliyyə Nazirliyi tərəfindən 2015-ci il üçün hazırlanmış, yenidən baxılmaq və təsdiq olunmaq məqsədilə təqdim olunmuş büdcə-vergi siyasəti layihəsində nəzərdə tutulmuşdur ki, 2015-ci il yanvarın 1-dən Moldovada neft məhsulları üçün aksizlər orta hesabla 9,3% artacaq.*

Layihədə qeyd olunmuşdur ki, 1 ton benzinə aksizin məbləği 3500 leydən (250 dollar) 3825 leyədək (270 dollar), dizel yanacağına 1455 leydən (103 dollar) 1590 leyədək (113 dolları ), sıxılmış qaza isə 2180 leydən (154,5 dollar) 2380 leyədək (168,5 dollar) artırılacaq.

Planlaşdırılır ki, neft məhsullarına aksizlərin artırılmasından 2015-ci ildə dövlət büdcəsinə əlavə olaraq 134,4 milyon ley (9,6 mln. dollar) vəsait daxil olacaqdır.

# İsveçrədə tullantıya görə vergi tutulacaq

*Vergitutmanın yeni növü barədə rəsmi qərar qəbul olunarsa, 2016-cı ildən İsveçrə paytaxtında tullantıya görə ödəniş icbari olacaq. Yeni vergi mağazalar, gecə klubları və məktəblərə şamil ediləcək. Əldə olunan vəsait isə tullantıların zərərsizləşdirilməsinə sərf olunacaq.*

İyunun sonunda Parlamentə təqdim olunan qanun layihəsi hələ müzakirələr mərhələsindədir. Bələdiyyə Şurası tullantıların daşınmasına görə ödəniş alınmasını təklif edib.

Vergi dərəcəsi bəzi müəssisələrin gizli saxladıqları vəsaitləri dövriyyəyə qaytarmağa kömək edəcək.

Qanun qüvvəyə mindikdən sonra siyahıdan çıxarılmış təşkilatlar yenidən nəzarət altına düşəcək. Bunun nəticəsində sahibkarlar tullantıların zərərsizləşdirilməsinə görə əlavə pul ödəməli olacaqlar.

# İspaniya gəlir və korporativ vergiləri azaldacaq

*İstehlak xərclərini və ölkə iqtisadiyyatına investisiya qoyulmasını təşviq etmək məqsədi ilə 2015-2016-cı illərdə İspaniyada gəlir və korporativ vergilərin azaldılması gündəmdədir.*

Baş nazirin müavini Soraya Sayens de Santamariya bildirib ki, gəlir vergisi orta hesabla 13% azaldılacaq və bunun sayəsində illik gəliri 24000 avrodan az olan ispanların vergi ödəmələri 2016-ci ildə 23% azalacaq.

Hökumət tərəfindən tövsiyə edilmiş plan çərçivəsində 2016-cı ilədək gəlir vergisinin yüksək dərəcəsi 52%-dən 47%-dək, aşağı dərəcəsi 24%-dən 19%-dək azaldılacaq. Bununla yanaşı, hökumət bəzi kateqoriyalardan olan vətəndaşlara vergi güzəştlərini də artıracaq.

# Yaponiya mənfəət vergisinin dərəcəsini aşağı salır

*Hökumətdən verilən məlumata görə, gələn ildən başlayaraq bir neçə mərhələdə korporativ verginin 30%-dən aşağı səviyyəyədək azaldılması planlaşdırılır. Bundan əlavə, əmək immiqrasiya qanunvericiliyini sadələşdirmək və əcnəbilərə Yaponiyada işləmək və sərmayə qoymaq üçün daha çox imkanlar açmaq təklif olunur.*



Yaponiya Maliyyə Nazirliyinin məlumatına görə, son 10 ildə birbaşa xarici investisiyaların həcmi iki dəfə - 200 milyard dollara qədər artıb. Bununla yanaşı, Sinqapurda həmin müddətdə xarici investisiyaların həcmi üç dəfə - 600 milyard dolladək artıb. Tokio da bu prosesi sürətləndirmək niyyətindədir.

Hökumətə demoqrafik problemlərlə, əhalinin qocalması ilə hesablaşmaq lazım gəlir. Buna görə də Abe proqramının bəndlərindən biri işə daha çox qadın və yaşlı insanları cəlb etməkdir. Həmçinin robotlar da cəlb olunmalıdır, çünki istehsalın avtomatlaşdırılması yapon mallarını dünya bazarında daha rəqabətqabiliyyətli edir.

Xarici ölkələrin təcrübəsi:

# Çex Respublikasının vergi sistemi: fiziki şəxslərin gəlir vergisi

*Fiziki şəxslərin məcmu gəlirləri milli və bələdiyyə səviyyəsində gəlir vergisinə cəlb olunur. Rezident fiziki şəxslər dünya üzrə pul və qeyri-pul şəklində gəlirlərindən vergi ödəməlidirlər.*



Bu şərtlərdən birinə cavab verən istənilən fiziki şəxs Çexiyanın rezidenti hesab edilir:

- ölkənin ərazisində daimi evə (yaşayış ünvanına) malik olanlar;
- təhsil və müalicə məqsədləri üçün qaldığı müddət istisna olmaqla, ölkənin ərazisində müvafiq təqvim ili ərzində ən azı 183 gün qalmış şəxslər.

Gəlirlər bu kateqoriyalara bölünür: muzdlu işdən gəlir, sahibkarlıq və peşə fəaliyyətindən gəlir, kapitaldan gəlir, icarədən gəlir və digər gəlirlər.

Digər gəlirlərə yuxarıdakı kateqoriyalardan heç birinə aid edilməyən, əsasən aşağıdakı gəlirlər daxildir:

- vergi ili ərzində 20000 çex kronundan (1çex kronu=0.0389 manat) artıq olduğu halda (əks halda vergidən azaddır), daşınan əmlakın müvəqqəti icarəsi daxil olmaqla müvəqqəti fəaliyyətlərdən gəlir;
- vergidən azad olmayan qiymətli kağızlar da daxil olmaqla, qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı əmlakın satışından kapital gəlirləri;
- mülkiyyət hüququnun təqdim edilməsindən gəlir;
- vergidən azad edilmədiyi halda, alimentlər və pensiyalar;
- hesabların idarə olunmasına görə ödənişlər, müəssisə və ortaqlıqların ləğvetmə prosesləri üzrə əldə olunmuş gəlir.

Vergi tutulan gəlir yol verilən xərclər çıxılmaqla hər kateqoriya üzrə ayrıca hesablanır. Hər kateqoriya üzrə yekun nəticələr vahid vergitutma bazasında cəmlənir və gəlir vergisinin ümumi dərəcəsi tətbiq edilir. Buna baxmayaraq, bəzi passiv gəlir növləri ödəmə mənbəyində ayrıca yekun vergiyə cəlb edilir. Təqaüdlər isə vergidən azaddır.

Ölkədə məcmu gəlir ümumi 15% dərəcə ilə vergiyə cəlb edilir.

2013-2015-ci vergi illəri üçün muzdlu işdən, sahibkarlıq və peşə fəaliyyətindən məcmu gəlirin illik orta əməkhaqqının 4 mislindən (2013-cü il üçün 1242432 kron) artıq olan hissəsinə əlavə 7% «həmrəylik vergisi» dərəcəsi tətbiq edilir.

Muzdlu işdən gəlir, kapital gəliri və digər gəlirlər kateqoriyalarının xalis məcmusu zərərlə nəticələnə bilməz. Sahibkarlıq və peşə fəaliyyətindən gəlir kateqoriyası üzrə istənilən zərər icarədən gəlir kateqoriyası üzrə gəlirlə və ya əksinə əvəzləşdirilə bilər. Bu iki kateqoriya üzrə yekun yenə mənfi (zərərlə) nəticələndiyi halda, zərər 5 vergi ili müddətinə növbəti dövrlərə keçirilə bilər.

Rezidentlərin daxili mənbələrdən əldə etdikləri aşağıdakı gəlirləri, hər biri ayrıca vergitutma bazasını təşkil etməklə, 15% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb edilir:

Dividendlər və digər bölüşdürmələr, mənfəətin keçirilməsi müqaviləsi və ya nəzarət müqaviləsinə əsasən nəzarət edən şəxsə keçirilən mənfəət, istiqrazlardan faizlər, əmanətin yığım hesabları, depozit hesabları və ya cari qeyri-sahibkarlıq hesablarından və depozit şəhadətnamələrindən gəlir əldə olunan faiz və digər səmərələr, dövlət pensiya sığortası və ya özəl həyat sığortaları müqavilələrinə xitam verilməsi ilə bağlı ödənişlərin ödənilmiş mükafatlar (sığorta haqları) qədər azaldılmış hissəsi.

Vergi dövrü təqvim ili hesab olunur. Kənd təsərrüfatı və ticarətdən gəlir əldə edən sahibkarlar vergi orqanlarına məlumat verməklə fərqli maliyyə ili tətbiq edə bilərlər.

Vergi orqanlarının 3 il ərzində müvafiq vergi dövrü üçün vergi öhdəliyini yenidən hesablamaq səlahiyyəti var. Vergi hesablanması bəyannamə ilə həyata keçirilmək halda, vergi orqanı ödəyiciyə verginin hesablanması ilə bağlı bildiriş vermək məcburiyyətində deyil.

Vergi ödəyicisinin yekun vergi öhdəliyi illik vergi bəyannaməsində hesablanır və bəyannamənin son təqdim edilmə tarixinədək ödənilir. Vergi bəyannaməsində qaytarılma tələbi qeyd edildikdə, vergi orqanları qaytarılma barədə ərizənin təqdim edildiyi gündən 30 gün ərzində qaytarılma tələbini təmin etməlidir.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**

1.Azərbaycan bəstəkarı Fərhəng Hüseynovun yapon dilində yazdığı opera. Bu, yapon musiqi tarixində ilk yapondilli opera idi. Librettonun müəllifi xanım Eyko Aokidir; 2.«Brilyant əl» bədii flmində baş qəhrəmanı oynamış rus aktyorun soyadı; 3.Sahibinin fəaliyyəti tələb olunmadan kapital, əmlak və ya torpaqdan müntəzəm alınan gəlir; 4.Nyu-Yorkda rayon; 5.Məşhur amerikalı kinoaktrisa və müğənninin soyadı; 6.Uruqvay futbolçusu, «Liverpul» klubunun və Uruqvay milli komandasının hücumçusu; 9.Yunanıstanın tərkibində, Aralıq dənizində ada; 13.Aylardan biri; 15.İsti, toxunma köynək; 16.Üzvi maddələr sinfinə daxil olan iysiz maye; 17.Odadavamlı maddələr, inşaat materialları və s. hazırlanmasında işlədilən lifli mineral; 18.Kimyəvi element (metal); 20.Görüşərkən bir-birinə sülh və əmin-amanlıq diləmək ifadəsi; 21.Yaxın və Orta Şərq ədəbiyyatında xüsusi qaydalar əsasında tərtib olunan şeirlər məcmuəsi.

**Soldan sağa:**

1.Simli musiqi aləti; 5.Kimyəvi element (metal); 7.Amerika şairəsi; 8.Rusiya Federasiyasının Komi Respublikasında şəhər; 10.Ukraynada kurort şəhəri; 11.Sözləri verilməyən tanış mahnının melodiyası əsasında qarşıdakı ekrandan sözləri izləməklə mahnının səsləndirilməsi; 12.Ferment; 14.Detalları birləşdirmək üçün işlədilən silindr mil; 19.Məsələni aydınlaşdırmaq üçün əsas mövzudan haşiyəçıxma; 21.Məşhur Amerika kriptoqrafı; 22.Xovsuz xalça növünün maraqlı nümunələrindən biri; 23.Dahi Avstriya bəstəkarı Mosartın 1791-ci ildə yazdığı sonuncu əsər; 24. Avropada çay; 25.Orduda və ya qoşun hissələrində təsərrüfat və təchizat işlərinə baxan hərbi qulluqçu.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ustika; 2.Uruqvay; 3.Puant; 4.Trubki; 5.Kulon; 6.Affekt; 9.Bali; 13.Luvr; 15.Arsenal; 16.Eskarp; 17.Eşelon; 18.Mekonq; 20.Yəmən; 21.Limit.

**Soldan sağa:** 1.Uzurpator; 5.KIA; 7.Trubadur; 8.Blef; 10.Küvet; 11.Kramnik *(Vladimir)*; 12.Ayalu; 14.Gilas; 19.Səyavuş *(Aslan)*; 21.Lisse; 22.Amma; 23.Flaminqo; 24.Pan; 25.Ornitoloq.

Vergilər Nazirliyinin kollektivi Bakı Şəhər Vergilər Departamentinin əməkdaşı Mübariz Məmmədova, anası **Dilşad xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev *anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu *redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14200**

Vergilər

## idman

# Federasiya kubokunun qalibi müəyyənləşdi



***Bakıda velosiped idmanının MTB (dağ velosipedi) növü üzrə Federasiya kuboku yarışı keçirilmişdir.***

Zığ şosesindəki zeytun bağları adlanan ərazidə təşkil olunan yarışda Azərbaycan Velosiped İdmanı Federasiyasının nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin idmançıları mübarizə aparmışlar.

Bundan başqa, həmin məkanda «SharkHead/velopeople» Həvəskar Velosipedçilər Klubunun «X-Ride» Cross-Country üzrə Bakı açıq kuboku yarışlarının üçüncü mərhələsi də təşkil olunmuşdur.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) qaydalarına uyğun keçirilən yarışda bütün yaş kateqoriyaları üzrə idmançılar hər biri 2,4 kilometrdən ibarət 5 dövrədə (cəmi 12 kilometr) yarışmışlar. Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası - «Synergy Baku»nun üzvü Aqşin İsmayılov marşrutu 29 dəqiqə 53 saniyəyə başa vurmaqla Federasiya kubokuna sahib olmuşdur.

Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin təmsilçiləri - Orxan Məmmədov və Murad Sultanov müvafiq olaraq gümüş və bürünc medal qazanmışlar.

# Güləşçilərimiz beynəlxalq turnirdə altı medal qazanmışlar

*Gürcüstanın Batumi şəhərində dünya çempionu Muxran Vaxtanqadzenin şərəfinə yunan-Roma güləşi üzrə gənclər arasında beynəlxalq turnir keçirilmişdir.*

Məşqçilər Akif Əliyev və Zöhrab Abbasovun rəhbərliyi altında yığma komandamızın üzvləri 3 gümüş və 3 bürünc medal qazanaraq 7 ölkə təmsilçilərinin iştirak etdikləri yarışda komanda hesabında Gürcüstandan sonra ikinci yerdə qərarlaşmışlar.

Millimizin heyətində Əli Məmmədov (55 kq), Zamir Məhəmmədov (96 kq) və Əli Həsənov (120 kq) finaladək maneəsiz irəliləsələr də, həlledici qarşılaşmada uduzmuş və gümüş medalla kifayətlənmişlər. Mikayıl Rəhmanov (60 kq), Orxan Məmmədli (66 kq) və Elton Vəzirzadə (84 kq) isə yığmamıza bürünc medal qazandırmışlar. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Kamran Əliyev təmsil etmişdir.

# Azərbaycan cüdoçuları Avropa birinciliyində

*Yunanıstanın paytaxtı Afinada cüdo üzrə kadetlər arasında Avropa birinciliyi başa çatmışdır. Turnirin ilk günündə Azərbaycan millisi iki medal qazanmışdır.*



Birincilikdə 55 kiloqram çəki dərəcəsində mübarizə aparmış Natiq Qurbanov ilkin qarşılaşmalarda rəqiblərindən üstün olmuş və finalda Rusiya cüdoçusu Ayib Bliyevə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Digər cüdoçumuz Leyla Əliyeva (44 kq) Rumıniya təmsilçisi Mixaela Çissi, hollandiyalı Amber Gersjesi və almaniyalı Yana Şmitsi məğlub edərək finala adlamışdır. Çempionluq uğrunda görüşdə italiyalı Miçela Fioriniyə uduzan cüdoçumuz gümüş medalla kifayətlənmişdir.

Turnirin ikinci günündə Azərbaycan millisi daha bir qızıl medal qazanmışdır. 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Hidayət Heydərov portuqaliyalı David Reisə, israilli Oran Ginerə, gürcüstanlı Beka Udesianiyə və isveçrəli Naim Matta qalib gələrək finala yüksəlmişdir. Həlledici görüşdə Rusiya cüdoçusu İsmayıl Çasiqovdan üstün olan Hidayət Heydərov fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

# Şahmatçılarımız Avropa çempionatında uğurla çıxış edirlər

Bolqarıstanın Plovdiv şəhərində qadınlar arasında şahmat üzrə Avropa çempionatı keçirilir. 26 ölkədən 116 şahmatçının qatıldığı bu çempionatda Azərbaycanı 10 iştirakçı, o cümlədən qrossmeysterlər Gülnar Məmmədova, Türkan Məmmədyarova, beynəlxalq ustalar Xəyalə Abdulla, Səbinə İbrahimova, Nərmin Kazımova, FİDE ustaları Nərmin Xələfova, Günay Məmmədzadə, həmçinin Aytən Amrayeva, Nərmin Məmmədova və Nərmin Söyünlü təmsil edirlər.

Birinci turun oyunlarında Azərbaycan şahmatçılarından Səbinə İbrahimova, Türkan Məmmədyarova, Günay Məmmədzadə və Nərmin Söyünlü qalib gəlmiş, Gülnar Məmmədova və Nərmin Kazımova heç-heçə oynamış və Xəyalə Abdulla və Nərmin Xələfova, Aytən Amrayeva və Nərmin Məmmədova uduzmuşlar.

Xatırladaq ki, bu çempionat UNESCO-nun himayəsi altında keçirilən ilk şahmat turniridir.

## mozaika

# H1N1 qripi virusu

araşdırma

*ABŞ-ın Viskonsin Universitetinin (Medison) alimi Yoşixiro Kavaoka təqribən 500 min adamı məhv etmiş H1N1 qripi virusunu yenidən yaratmışdır.*

Virusologiya professoru olan Y.Kavaoka 2009-cu ilin nümunəsi olan H1N1 virusunun ştammını dəyişdirmişdir. Alim qripə qarşı vaksin yaratmaq istəsə də, insan immunitetinə davamlı virus ərsəyə gətirmişdir. «Independent» qəzetinin yazdığına görə, Y.Kavaokanın 2009-2010-cu illər epidemiyasından əvvəl mövcud olmuş virus ştammını yaratmaq istəyinin səbəbi virusun son dörd ildə necə dəyişdiyini izləmək idi.




Kavaokanın işi digər alimlər tərəfindən ciddi tənqid olunmuşdur. Onların fikrincə, virusun yeni ştammı laboratoriyanın hüdudlarından kənara çıxsa, bəşəriyyət onun qarşısında gücsüz olacaqdır, çünki bu virusa qarşı heç bir vaksin yoxdur.

Viskonsin Universitetinin alimləri bildirmişlər ki, hadisələrin belə gedişatı mümkün deyildir, Kavaokanın fəaliyyəti isə yeni vaksinlərin yaradılmasına yönəlmişdir. Daha əvvəl mətbuatda yayılan xəbərə görə, Yoşixiro Kavaoka bir qrup alim ilə birlikdə «ispanka» virusunun analoqunu yaratmışdı. Alimlər quş qripinin müxtəlif ştammlarından istifadə etmiş və orijinaldan yalnız 3 faiz fərqlənən virus yaratmışlar. 1918-1919-cu illərdə «ispanka» epidemiyası tarixdə ən kütləvi qrip pandemiyası olmuşdur. Onda dünyada bu virusdan 100 milyona qədər insan tələf olmuşdu.

# «Azerspace 1»in yayım dairəsi böyüyür

texnologiya

*Azərbaycanın ilk telekommunikasiya peyki - «Azerspace-1» üzərindən yayımlanan telekanalların sayı artmaqdadır. Bu il iyul ayının 1-nə olan məlumata görə, artıq peyk üzərindən 100-ə yaxın televiziya və 20-dək radio kanalı yayımlanır.*

Son yeniliklərdən biri budur ki, Rusiyanın bir sıra televiziya kanalı Azərbaycanın ilk milli peyki - «Azerspace 1/Africasat 1A» üzərindən yayıma başlayıb. Milli peyk üzərindən açıq yayıma başlayan kanallar - «A-One», «Evropa Plyus TV», «Karusel +0», «Life News», «MİR-24», «Moskva. Doveriye», «Mult +0», «Pyatnitsa +0», «REN +0», «RU-TV», «STS +0», «TV3 (Rossiya) +0», «Zvezda +0» artıq 11015 H 30000 5/6 transponderində özünə yer edib.

Qeyd edək ki, «Azərspace-1» peyki 2013-cü ilin fevral ayında 46 dərəcə şərq uzunluğundakı orbitə çıxarılıb və həmin ilin may ayından etibarən kommersiya fəaliyyətinə başlayıb.

«Azərspace-1» peykinin əhatə zonasına Avropa, Afrika, Qafqaz, Yaxın Şərq və Mərkəzi Asiya regionları daxildir və peyk «Azərkosmos» ASC tərəfindən ən yüksək beynəlxalq tələblərə cavab verən yerüstü peyk idarəetmə mərkəzlərindən dayanıqlı və fasiləsiz idarə edilir.



# «Selfi»yə aludə olmaq...

*İndi bütün dünyada insanlar arasında çox geniş yayılmış hallardan biri mobil telefon və ya planşetlərlə öz şəklini çəkmək, başqa sözlə, «selfi»dir. Bu bəzən aludəçilik səviyyəsində özünü göstərir.*

ABŞ Psixiatriya Assosiasiyasının alimləri bu sahədə araşdırma aparmış və belə qənaətə gəlmişlər ki, «selfi» aludəçiliyi insanlarda psixi pozğunluq yaradır. Assosiasiya yeni xəstəliyi Çikaqoda «selfes» adı ilə təqdim etmişdir.

Psixiatrların fikrincə, «selfi»yə aludə olmaq özünə hörmət hissinin yoxluğunu kompensasiya etmək üçün daim öz şəkillərini çəkib sosial şəbəkələrdə yerləşdirmək arzusu ilə səciyyələnən obsessiv-kompulsiv pozğunluqdur.

Alimlər psixi pozğunluğun üç səviyyəsini müəyyən etmişlər:

***Birincisi epizodikdir:*** insan gündə azı üç dəfə öz şəklini çəkir, amma sosial şəbəkədə yerləşdirmir.

***İkincisi kəskindir:*** insan gündə azı üç dəfə öz şəklini çəkir və onları sosial şəbəkədə yerləşdirir.

***Üçüncüsü xronikidir:*** insan fasiləsiz olaraq şəklini çəkmək və çəkdiyi şəkilləri azı altı saatdan bir internetdə yerləşdirmək istəyinə nəzarət edə bilmir.

Psixiatrlar bildirirlər ki, hazırda selfes xəstəliyinin müalicəsi yoxdur.

# Muzeydə robot-bələdçi

Tokio muzeylərindən birində meydana çıxan yeni bələdçi robotlar insana elə çox bənzəyir və elə yaxşı danışırlar ki, bəzi məqamlarda öz prototiplərini - insanları kölgədə qoyurlar. Yaponiyanın robototexnik alimi professor Xiroşi İşiquro hesab edir ki, onun yaratdığı bu robotlar insanla maşınlar arasında qarşılıqlı əlaqələr üzrə tədqiqatlara kömək edəcək, habelə onların bir-birindən nə ilə fərqləndiklərini göstərəcəkdir.

İlk təqdimatda robotlar lazım gələn məqamda dodaqlarını tərpətməyi, göz qırpmağı, söhbət zamanı əllərini tərpətməyi və hətta baş yırğalamağı bacardıqlarını nümayiş etdirmişlər. Lakin kişi variantlı maşının - Kodomoroidin xəbərləri sürətlə, səlis oxuması, mürəkkəb yanıltmaclar demək bacarığı iştirakçılarda daha böyük maraq doğurmuşdur. Bələdçi robot Otomoroid qadın görkəmindədir, amma söhbət zamanı uşaq səsindən tutmuş kişi səsinədək müxtəlif səslərdən istifadə edə bilir.

Təqdimat zamanı maşınlar nümayiş olunarkən proqramda bəzi nasazlıqlar olub: bir dəfə ifadələr dodaqların hərəkəti ilə üst-üstə düşməyib, ikinci dəfə Otomoroid özünü təqdim etmək xahişini yerinə yetirə bilməyib. Lakin bütün bunlar ciddi nöqsanlar hesab edilmir, ən qısa zamanda aradan qaldırılacaqdır.

Süni dəri və əzələlərlə təchiz olunmuş hər iki robot tezliklə Tokio Milli Elm və İnnovasiyaların İnkişafı Muzeyinə təhvil veriləcəkdir. Bu robotların yaradıcısı bir çox robot texniklərinin belə bir fikri ilə razı deyildir ki, mexanizmlərin insanlarla həddindən artıq oxşarlığı adamları qorxuda bilər. Əksinə, o, hesab edir ki, robotların məhz antropomorf olması onların gündəlik həyatımızın bir hissəsinə daha tez çevrilməsinə imkan verəcəkdir.

# Günəş enerjisi ilə işləyən ilk robot

maraqlı



Avstraliyada büdcəsi bir milyon dollar olan layihə çərçivəsində bitkilərin xəstəlik və zərərvericiləri haqqında məlumat toplamaq, alaq otlarına nəzarət etmək və hətta məhsul gününü müəyyənləşdirmək üçün günəş enerjisi ilə işləyən robot dizayn edilmişdir.

Özü özünü hərəkət etdirən bu «Uğur böcəyi» adlı yeni robotun üzərində olan qəbuledicilər və yüksək dəqiqliyə malik kameralar məlumatları yığaraq şərh edir və əkinçiyə çatdırır. Robot Avstraliyada ispanaq, soğan və çuğundur yetişdirilən bir tarlada müvəffəqiyyətlə sınaqdan çıxarılmışdır.

**Müdriklər deyib ki...**

***«İnsanlar arxanızda danışırsa, deməli, siz onlardan öndəsiniz».***

***Anton Çexov (1860-1904)***

